# QALİB XALQIN QALİB LİDERİ!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Şəffaf və ədalətli seçki mühitində bütün namizədlərə bərabər imkanlar yaradılıb



3

## Qalib Xalqın önündə dayanan şəxs yalnız Qalib lider ola bilər!





6

SƏS

№ 007 (6932)

16 yanvar 2024-cü il.

Qiyməti 60 qəpik

# Ermənilər yeni müharibə qorxusunda: Qərbi Zəngəzur azad edilir?



13

*ABŞ-ın məşhur "Stratfor" agentliyi Azərbaycan və Ermənistan arasında münasibətlərə dair növbəti proqnozunu işıqlandırıb. Proqnozda ən maraqlısı və diqqətçəkən məqam isə budur ki, hər iki ölkə arasında 2024-cü ilin ilk 6 ayına qədər yekun sülh müqaviləsi imzalanmazsa, Qərbi Zəngəzur istiqamətində yenidən qısamüddətli müharibənin baş verə biləcəyi iddia olunur.*

**İstiqlal yolunun zirvəsi**





4

**Yeni Azərbaycan Partiyası təşviqat kampaniyasına start verib**



6

**Miqren ağrılarının səbəbi nədir?**



9

**Dəyərlər: keçmişdən bu günə, atadan oğula**



12

**Bakıda gimnastika üzrə Dünya Kuboku keçiriləcək**



16

# Tibbin ən son nailiyyətləri: yenidən qurulan hərbi hospitallarımız







***Azərbaycan səhiyyəsi özünün yeni inkişaf mərhələsini yaşayır. Ölkədə səhiyyə sahəsində aparılan islahatlar, Prezident İlham Əliyevin sərəncam və tapşırıqlarına əsasən tikilib istifadəyə verilən, yenidən qurulan tibb ocaqları Azərbaycan səhiyyəsinin inkişafının bu gün ən yüksək səviyyədə davam etdiyini göstərir. Prezident İlham Əliyevin diqqət və qayğısı ilə nəinki paytaxt Bakıda, bölgələrdə də müasir tibb mərkəzləri açılır, köhnə tibb ocaqları yenidən bərpa olunaraq müasir avadanlıqlarla təmin olunur.***







Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir. Son illər inkişaf etməkdə olan tibbi sahələrdə baş verən yeniliklər, hərbi tibbi hospitallardan da yan keçməyib. Bu gün dünyanın ən inkişaf etmiş, yeni müayinə və müalicə aparatları, əməliyyat ləvazimatlarının tibbi sahələrdə tətbiqi, bu sahədə həm tibb müəssisələrinin, həm də tibb personalının inkişaf etməsi deməkdir. Bu gün ölkəmizdə hərbi hospitallar da yenidən qurulur.

## "BİZİM ORDUDA DA, BİZİM ÖLKƏDƏ DƏ BU CÜR ƏZƏMƏTLİ HƏRBİ TİBB MÜƏSSİSƏSİ OLACAQDIR"

Xatırlatmaq yerinə düşər ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev 1993-cü ildə hospitalda müalicə olunan hərbi qulluqçularla görüşərkən tezliklə ölkəmizdə qabaqcıl hərbi təbabətin yaranacağını qətiyyətlə bildirmişdi. Bu gün Azərbaycan xalqının Ümummilli Liderinin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin diqqət və qayğısının nəticəsidir ki, Ulu Öndərin vaxtilə Gülhanə Hərbi Tibb Akademiyasında olarkən söylədiyi "Bizim orduda da, bizim ölkədə də bu cür əzəmətli hərbi tibb müəssisəsi olacaqdır" - fikiri öz ifadəsini tapıb. Müasir tibbi cihaz və avadanlıqlarla təchiz olunmuş hərbi hospitallar hərbi qulluqçulara yüksək səviyyədə xidmət göstərməyə imkan verir.

Yanvarın 15-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Bakıda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hospital kompleksinin açılışında iştirak edib. Hospitalda quraşdırılan avadanlıq tibbin ən son nailiyyətlərinə əsaslanır. Müasir texniki baza ilə təchiz olunan hərbi hospitalın istifadəyə verilməsi müasir şərait bütün növ ağır cərrahi əməliyyatları aparmağa, müayinə və müalicə işlərinin aparılmasına imkan verir. Qeyd edək ki, hərbi hospitalın köhnə binası XX əsrin 70-ci illərində inşa olunub. Yeni hərbi hospitalda ən son elmi-texniki nailiyyətlərə və müharibə təcrübəsinə əsaslanan tibbi müayinə və müalicə imkanları yaradılıb. Dünyanın qabaqcıl ölkələrində istehsal olunan tibbi avadanlıqlarla təchiz edilmiş hərbi hospitalın ürək-damar cərrahiyyəsi, invaziv kardiologiya, nevrologiya və digər tibbi fəaliyyət sahələri xəstələrə ən yüksək səviyyədə çoxfunksionallı xidmət göstərəcək. Səkkiz mərtəbədən və köməkçi binalardan ibarət hərbi hospitalın inşası müasir texnologiyalar və qabaqcıl təcrübələr əsasında həyata keçirilib. Ümumi sahəsi 24.760 kvadratmetr olan 240 çarpayılıq binada 903 otaq, 17 şöbə, 80 palata mövcuddur. Hərbi dövrdə çarpayı sayının 700-ə çatdırılması imkanları vardır. Burada yaradılan Təcili Tibbi Yardım Mərkəzi durumu son dərəcə kritik olan xəstələrin 24 saat qəbulunu həyata keçirməyə imkan verəcək. İl ərzində hərbi hospitalda 100-110 min ambulator, 17 min-20 min xəstə stasionar müalicə oluna bilər.

## AZƏRBAYCAN ƏSGƏRİNİN, HƏRBÇİSİNİN SAĞLAMLIĞINI QORUMAQ ÜÇÜN YARADILAN ŞƏRAİT

Hərbi hospitalın cərrahiyyə şöbəsində quraşdırılan avadanlıqlar istənilən növ ağır əməliyyatları aparmağa imkan verir. Tibb ocağında 11 əməliyyatxanadan ibarət xüsusi blok yerləşir. Hospitalda uçuş heyətinin və dalğıcların müayinəsi və müalicəsi üçün respublikada ən müasir hiperbarik oksigenasiya avadanlığı (barokamera) quraşdırılıb. Binada gözləmə, konfrans, yataq, yemək otaqları yaradılıb, intensiv terapiya və tibbi heyət üçün bölmələr fəaliyyət göstərir. DSX-də qadın hərbi qulluqçuların sayı nəzərə alınaraq hərbi hospitalda doğum mərkəzi də yaradılıb.

Hərbi hospitalın laboratoriya şöbəsində ən yeni müayinə üsullarını özündə birləşdirən və tibbi tələblərə tam cavab verən dünyanın aparıcı şirkətlərinin laborator avadanlığı quraşdırılıb. Müalicə ocağı dövrün tələblərinə uyğun çağrı və nəzarət sistemləri ilə təmin olunub. Hərbi hospitalda klinik fəaliyyətin, yəni tibbi tədris işinin təşkili və ixtisaslı hərbi həkimlərin hazırlanması şəraiti yaradılıb.

Belə hospitalların açılması bütövlükdə Azərbaycan Ordu¬sunun fəaliyyətinin davamlılıq və sağlamlıq təminatı baxımından olduqca mühüm addım idi.

Şübhəsiz ki, yaradılan şərait Azərbaycan əsgərinin, hərbçisinin sağlamlığını qorumaq üçün hər cür imkan yaradır. Bu kimi hərbi-tibbi mərkəzlərin istifadəyə verilməsi həm də Azərbaycanın qüdrətinin əyani təzahürüdür.

***Zümrüd BAYRAMOVA***



# Şəffaf və ədalətli seçki mühitində bütün namizədlərə bərabər imkanlar yaradılıb

## *YAP Sədrinin müavini Tahir Budaqov ATƏT DTİHB Seçki Müşahidə Missiyasının rəhbəri ilə görüşüb*





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yanvarın 15-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Seçki Müşahidə Missiyasının rəhbəri Ouen Mörfi və missiyanın əsas heyətinin üzvü Dominik Houeli qəbul edib. Qonaqları salamlayan YAP Sədrinin müavini Tahir Budaqov Azərbaycanın seçki təcrübəsi barədə ətraflı məlumat verib. O, 2024-cü il fevralın 7-də ölkəmizdə keçiriləcək prezident seçkilərinin azad, şəffaf və demokratik şəraitdə baş tutacağına əminliyini ifadə edib.

Görüş imkanının yaradılmasına görə təşəkkürünü bildirən missiyanın rəhbəri Ouen Mörfi ATƏT DTİHB missiyasının tərkibi və fəaliyyəti barədə məlumat verib. O, Azərbaycandakı seçki mühitini və təşviqat kampaniyalarının gedişatını öyrənmək məqsədilə seçkilərdə iştirak edən partiyalar və namizədlərlə görüşlər keçirdiklərini söyləyib.

YAP Sədrinin müavini Tahir Budaqov Yeni Azərbaycan Partiyasının seçkilərə hazırlıq tədbirləri haqqında ümumi məlumat verərək istər partiyanın namizədinin qeydiyyatı üçün tələb olunan imzaların toplanması işində, istərsə də təşviqat kampaniyasında YAP fəallarının aktiv iştirak etdiklərini deyib. O, Azərbaycandakı şəffaf və ədalətli seçki mühitində bütün namizədlərə bərabər imkanların yaradıldığını diqqətə çatdırıb. Tahir Budaqov ATƏT DTİHB missiyasının yekun hesabatının qərəzsiz, obyektiv olacağına ümidvar olduğunu bildirib və missiyanın fəaliyyətinə uğurlar arzulayıb.

# Rusiya tarixçisi: "Fransa anti-Azərbaycan mövqeyi tutmaqla Afrikadakı uğursuzluğunun əvəzini çıxmaq istəyir"



***Rusiya Elmlər Akademiyasının E.M.Primakov adına Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər Milli Tədqiqat İnstitutunun baş elmi işçisi, tarix elmləri namizədi Stanislav Pritçin AZƏRTAC-ın müxbiri ilə söhbətində bu il Azərbaycanda keçiriləcək COP29 konfransı, işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti-bərpa işləri, habelə Ermənistan-Azərbaycan münasibətləri məsələsi kontekstində Fransanın mövqeyi barədə fikirlərini bölüşüb.***



**- 2024-cü ildə Azərbaycanda BMT-nin İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 keçiriləcək. Bu hadisəni Azərbaycanın dünyadakı nüfuzunun göstəricisi adlandırmaq olarmı?**

- Azərbaycan, ölkənin bir çox qlobal oyunçular tərəfindən neytral, məqbul platforma kimi qəbul edilməsi üçün öz meydançasının böyük beynəlxalq forumların keçirilməsi üçün təqdim edilməsi ilə bağlı sistemli şəkildə iş aparır. Forumun ilk dəfə Ermənistan tərəfi ilə koordinasiya edilməsi də olduqca mühüm addımdır və Azərbaycanın hətta bu kompromislərin qurulmasının heç də hər zaman mümkün olmadığı ölkələrlə belə, kompromislər tapmağı bacarmasının göstəricisidir. Azərbaycan həm də ölkəni regional məsələlərin müzakirə olunması və həll edilməsi üçün rahat, əlverişli, konstruktiv tərəfdaş kimi qəbul edən kifayət qədər geniş tərəfdaşlar şəbəkəsinə malikdir.

**- Bu il keçmiş məcburi köçkünlər işğaldan azad edilmiş Qarabağdakı daha beş şəhərə (Şuşa, Xankəndi, Xocalı, Kəlbəcər, Cəbrayıl) qaytarılacaqlar. Azad edilmiş ərazilərdə aparılan tikinti-bərpa işlərinin, həyata keçirilən infrastruktur layihələrinin həcmini necə qiymətləndirirsiniz?**

- Biz bunun həm Azərbaycan hökumətinin, həm də bütövlükdə Azərbaycan rəhbərliyinin əsas prioritetlərindən biri olduğunu görürük. Mən artıq iki aeroportda – Füzuli və Zəngilan hava limanlarında olmuşam, bərpa olunan bir neçə iri obyektə səfər etmişəm, o cümlədən "Ağıllı kənd" layihələri ilə tanış olmuşam. Bərpa işlərinin sürəti xoş təəssürat oyadır. Bu, ümumilikdə Azərbaycanın bütöv inkişafına, o cümlədən ümumi daxili məhsula ciddi töhfədir.

Bu, inkişaf və bərpa işləri üzrə uzunmüddətli trenddir və minalanma, ərazinin uzun illər ərzində boş qalması, elektrik enerjisinin, suyun olmaması kimi çətinliklərə baxmayaraq, bütün bu məsələlər artıq operativ şəkildə həll olunur. Dövlət bu məsələyə sistemli şəkildə yanaşır, qabaqcıl texnologiyaları işə cəlb edir. Şuşanın bərpası ilə bağlı gördüklərimiz görülən işlərin həm də digər regionlardakı tarixi irslə əlaqədar olduğunu göstərir. Tikilən binaların ən müasir texnologiyaya əsaslanan evlər olduğunu da görürük. Ümumiyyətlə, dövlət bu baxımdan maksimum səmərəlilik göstərərək, ərazilərin tezliklə bərpası və insanları həmin bölgəyə geri qaytarmaq iradəsini nümayiş etdirir.

**- İkinci Qarabağ müharibəsində Azərbaycanın parlaq Qələbəsi, ötən ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri, Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsinin (NBM) yaradılması, Azərbaycanın ərazi bütövlüyünün tam bərpası... 2020-ci il sentyabrın 27-dən bəri ölkənin siyasi və hərbi rəhbərliyinin fəaliyyətini necə qiymətləndirirsiniz?**

- Biz Azərbaycanın çox aydın və dəqiq məqsədi olduğunu və dövlətçiliyin əsas məsələsi olan ərazi bütövlüyü probleminin həlli üçün nə etmək lazım olduğunu dərk etdiyinin şahidi olduq. Rəqiblərindən fərqli olaraq, Azərbaycanın kifayət qədər ardıcıl və dəqiq xətti var idi. Azərbaycan diplomatik və hərbi səylərini birləşdirməyi bacardı: diplomatik səylər səmərə verməyəndə, Azərbaycan hərbi səylərini nümayiş etdirdi, eyni zamanda, hər zaman dialoqa açıq olduğunu bəyan etdi. Bu nöqteyi-nəzərdən, əldə olunan nəticə qanunauyğundur - Azərbaycan həm hərbi, həm də siyasi cəhətdən istədiyinə nail ola bildi.

**- Sonuncu sualım Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasındakı mövqeyi haqqındadır. Son vaxtlar Fransa açıq şəkildə anti-Azərbaycan mövqeyi sərgiləyir, Ermənistanı silahlandırır və dəstəkləyir, Azərbaycan şairəsinin abidəsinə qarşı vandalizm aktı həyata keçirilir. Lakin Azərbaycanın iradəsini qırmaq mümkün deyil. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gücümüzün əsas mənbəyi haqlı olmağımızdadır. Siz Fransanın zəifliyini nədə görürsünüz?**

- Fransa xüsusən Afrikadakı məğlubiyyəti və sonsuz itkiləri fonunda, ritorika hesabına özünü qlobal oyunçu kimi göstərməyə çalışır. Buna görə, Fransanın indiki halda əks nəticə verən mövqeyi, onun Afrikada müşahidə olunan uğursuzluqlarının və məğlubiyyətlərinin əvəzini çıxmaq ehtiyacı duyması ilə əlaqədardır. Müvafiq olaraq, Ermənistan bu baxımdan əlverişli variantdır – çünki heç bir ciddi nəticə olmadan sərt anti-Azərbaycan mövqeyi tutmaq olar. Fransanın maksimum dərəcədə itirəcəyi Azərbaycanla olan normal münasibətlərdir, faktiki olaraq, o artıq bu münasibətləri itirib. Lakin, eyni zamanda, Fransa bu ritorikanı davam etdirir, çünki siyasi diskurs baxımından bunları demək niyyəti güdür: "Biz Cənubi Qafqazdakı tərəfdaşımızı dəstəkləyirik. Biz Cənubi Qafqazda mühüm oyunçuyuq". Fransa və Avropa sakinlərinin isə heç biri qüvvələrin gerçək uyğunluğunun nədən ibarət olduğunu və Fransanın bu mövqeyinin nə üçün əksyönümlü və dağıdıcı olduğunu anlamır.




# İstiqlal yolunun zirvəsi

*Milli məfkurənin inkişafına təkan vermiş hadisələrdən olan 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən bizi 34 illik bir zaman ayırır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədiblər.*



Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.

20 yanvar faciəsinin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq və insanların müstəqillik arzularını tankların altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi və milli qürurumuzu qıra bilmədi. Xalqa qarşı törədilən bu cinayət Sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxardı. Əslində, imperiyanın Bakıda qanlı hadisəni törətməklə, İttifaqa üzv olan digər respublikalara gözdağı vermək planı və imperiyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu. Azərbaycanda günahsız insanların güllləbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatları və SSRİ DTK-nın "A" təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu faciəni törədənlər Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü və suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı.

## MİLLİ MƏFKURƏMİZİN AZADLIQ İSTƏYİNİN OYANIŞ GÜNÜ

M.Qorbaçovun fərmanı ilə paytaxtımızda fövqəladə vəziyyət elan olundu. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. 1990-cı ilin yanvarında Sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın və uşaq var idi.

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən, M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi.

## FACİƏYƏ VERİLƏN İLK SİYASİ QİYMƏT

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.

Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi.

20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Dahi Öndər Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Ümummilli Lider Heydər Əliyev, 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də, bir sıra mühüm tədbirlər həyata keçirdi. Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, ilk olaraq, Şəhidlər Xiyabanını ziyarət etdi və tapşırıq verdi ki, qısa müddətdə, bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

## BÜTÜN ŞƏHİDLƏRİMİZİN RUHU ŞAD OLDU

Bu gün ölkəmizdə müharibə veteranlarının, şəhid ailələrinin və əlillərin problemləri dövlət səviyyəsində həllini tapır. Ölkəmizdə bu istiqamətində böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin və əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir.

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsi gücləndirilir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Şəhidlər Xiyabanı Vahid Kompleks kimi yüksək səviyyədə yenidən qurulub və abadlaşdırılıb. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə Xatirə-Kompleksin yaradılması oldu. Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində Memorial Abidə-Kompleks yaradıldı. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub.

Bu gün xalqımız 20 Yanvar hadisələrinin 34-cü ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır və onların əziz xatirəsini böyük ehtiramla yad edir.

2020-ci ilin noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şəhidlər xiyabanına gələrək Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etməsi və buradan Azərbaycan xalqına müraciət etməsi şəhidlərimizə olan ehtiram idi. Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edərək "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!" - dedi. O gün bütün şəhidlərimizin ruhu şad oldu.

## ZAMANIN AYNASI - TARİXİ HƏQİQƏTLƏR

20 Yanvar hadisələrin xalqın tarixi yaddaşında həkk olunmasında mədəniyyətin rolu danılmazdır. Əməkdar rəssam Arif Ələsgərovun "20 Yanvar" tablosu. rəssam Bayram Qasımxanlının "Faciələrimiz" (triptix), Mikayıl Abdullayevin "Nakamların dəfni", Rasim Babayevin "Təcavüz", Arif Hüseynovun "Qara tağlı natürmort", Arif Ələsgərovun "20 Yanvar", İsmayıl İsmayılovun "Haqq tərəzisi", Oqtay Quliyevin "Matəm", Bayram Qasımxanlının "Faciələrimiz" (triptix) rəsmləri həsr olunub. Vasif Adıgözəlovun Fikrət Qocanın sözlərinə bəstələdiyi "Bir şərqi de", Hacı Xanməmmədovun "Əlimdə sazım ağlar", Oqtay Rəcəbovun Məmməd İsmayılın sözlərinə bəstələdiyi "Qana dönən qərənfillər", Emin Sabitoğlunun Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi "Şəhidlər ağısı", Mehriban Əhmədovanın Məmməd Arazın sözlərinə yazdığı "Ana millət, ata millət, ağlama", Sərdar Fərəcovun "Matəm harayları" simfonik lövhəsi, Arif Mirzəyevin "Yanvar passionları" matəm messası, Oqtay Rəcəbovun "Çingiz" oratoriyası və s qeyd etmək olar. Azərbaycan kinematoqrafında 20 Yanvar hadisəsinə "Qanlı Yanvar", "Boz qurdun harayı", "Azadlığa gedən yollar", "Bakıda insan ovu", "Şəhidlər və qazilər", "Qanlı Bakı", "Matəm" filmləri həsr olunub. Hadisədən sonra Bəxtiyar Vahabzadə, Məmməd Aslan, Qabil, Xəlil Rza, Fikrət Qoca və başqalarının elegiyaları, etiraz ruhlu şeirləri yazılıb.

Əlbəttə ki, gənclərimiz tarixi həqiqətləri bilməlidirlər. Yaxın tariximizin öyrənilməsi və araşdırılması vacibdir. Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı ilin 20 Yanvar faciəsi gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır. Bu tarix Azərbaycanın sonrakı taleyində əhəmiyyətli rol oynadı.

***Nəzakət ƏLƏDDİNQIZI***








# Prezident: "Qarabağ özəl sektor üçün böyük fürsətdir"

## Dövlət başçısı: "Qarabağ yalnız daxili imkanlar hesabına bərpa edilir, heç bir donor təşkilatın köməyi yoxdur"

***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə verib. Müsahibə zamanı president bir çox vacib məsələlər ətrafında geniş danışıb. Onun şərh etdiyi vacib mövzulardan biri də Böyük Qayıdış Proqramı haqqında oldu. Bir müddət əvvəl, çıxışlarının birində "Qarabağ və Şərqi Zəngəzur cənnətə çevrilir", - deyən prezident orada sürətli bərpa və yenidənqurma işləri haqqında danışıb. Həmçinin, dövlət başçısı yerli sahibkarların, xarici investorların görülən işlərdəki payından bəhs edib, özəl sektorun Qarabağdakı işlərə qatılmasının onlar üçün böyük fürsət olduğunu deyib.***



Prezident İlham Əliyev: "Bu günə qədər görülən işlər göz qabağındadır. Bu haqda çox danışmaq istəməzdim. Sadəcə olaraq, bütün böyük infrastruktur layihələri ilə yanaşı, hesab edirəm ki, əsas nailiyyətimiz odur ki, beş yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdıb. Laçın, Füzuli şəhərləri, Ağalı, Talış və Zabux kəndləri artıq dirçəlir. Bu il həmin o yaşayış məntəqələrinə keçmiş köçkünlərin qaytarılması davam edəcək. Bu ilin İnvestisiya Proqramı yaxın günlərdə mənim tərəfimdən təsdiq olunacaq, bir neçə dəfə artıq müzakirədən keçib. Həm Qarabağa, Şərqi Zəngəzura, həm də ölkəmizin digər yerlərinə aid İnvestisiya Proqramı bərpa üçün əsas alətimizdir".



Dövlət başçısının sözlərinə görə, bu il Qarabağda, Şərqi Zəngəzurda infrastruktur layihələrinin hamısı davam etdiriləcək. Görüləcək işlər nəhəng layihələrdir. Məlum olduğu kimi, su anbarları, yollar, körpülər, dəmir yolları, məktəblər, xəstəxanaların inşası artıq başlayıb, bəziləri artıq istifadəyə verilib: "İçməli su xətləri, elektrik enerjisi ilə bağlı layihələr, suvarma ilə bağlı qeyd etdiyim su anbarları, məsələn Sərsəng Su Anbarı - bu gün anbarda ancaq 50 faiz su var. Çünki işğal dövründə ermənilər ancaq onu istismar ediblər. Yəni, oraya bir qəpik də vəsait qoyulmamışdı. Xaçınçay Su Anbarı tamamilə məhv edilmişdi, indi bu yaxınlarda açıldı".

Qeyd edək ki, yaxın gələcəkdə Füzulidəki Köndələnçay Su Anbarının açılışı olacaq. Suqovuşan yenidən quruldu, hazırda kanallar çəkilir. Ondan sonra Zabuxçay Su Anbarının inşası bu il tamamlanacaq, o da böyük ərazini suvarma suyu ilə təmin edəcək. Yəni, keçmiş köçkünlər qayıdanda artıq orada əkin-biçin üçün şərait qurulmuş olacaq. Qeyd edək ki, doğma torpağına qayıdan keçmiş köçkünlərin məşğulluğu ilə bağlı əlaqədar qurumlarımız ciddi məşğuldur. Keçmiş köçkünlər öz yurdlarına gedənə qədər onlar üçün treninqlər keçirilir, həmçinin yerlərdə yeni istehsalat sahələri, sənaye müəssisələri yaradılır və yaradılacaq. Ağdamda və Cəbrayılda iki böyük sənaye zonası artıq fəaliyyətə başlayıb və bu il o zonaların fəaliyyəti böyük dərəcədə genişlənəcək.

Prezident bildirir ki, bütün bu infrastruktur layihələri imkan verir ki, biz bu il daha böyük sayda keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytaraq: "Onların bu il qaytarılacaqları şəhərlər arasında beş şəhər - Şuşa şəhəri, Cəbrayıl şəhəri, Kəlbəcər şəhəri, Xankəndi şəhəri, Xocalı şəhəri olacaq. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə isə keçmiş məcburi köçkünlərin 2025-ci ildə qayıtması nəzərdə tutulur. Bununla paralel olaraq bir çox kəndlərdə, - hansılarda ki, mən təməl qoymuşam, - orada inşaat davam edəcək, bir neçə kəndə keçmiş köçkünlər qayıdacaqlar. Məsələn, Laçın rayonunun Sus kəndi hazır olacaq. Ondan sonra Xocalı rayonunun Kərkicahan, Malıbəyli, Turşsu kəndlərinin də bərpasına artıq start veririk. Kəndlər tamamilə dağılmış vəziyyətdədir. Mən Qarabağa son səfərim zamanı oraya baş çəkmişəm. Tamamilə dağılmış vəziyyətdədir, Malıbəyli məscidi də dağılmış və vandallar ondan da peyin anbarı kimi istifadə ediblər. Yəni, sadaladığım bu, ən azı şəhər və kəndlərə keçmiş köçkünlər qayıdacaq və 2026-cı ilin sonuna qədər o artıq bəyan edildi, hədəfimiz 140 min keçmiş köçkünü öz dədə-baba torpaqlarına qaytarmaqdır. Əminəm ki, biz buna da nail olacağıq".

Prezident bildirir ki, görülən bütün işlər dövlətimizin öz daxili imkanlar hesabına edirik. Heç bir donor təşkilatı, heç bir digər tərəf ölkəmizə kömək göstərmir. Ancaq Özbəkistan və Qazaxıstan Füzulidə iki məktəbin tikintisi ilə bağlı bizə qardaş dəstəyi göstərib, bütün qalan layihələr daxili imkanlar hesabına reallaşdırılır. Dövlət başçısı özəl sektora müraciət edərək onlara çağırış etdi və bildirdi ki, Qarabağa və Şərqi Zəngəzura daha fəal investisiya qoysunlar. Artıq Hadrut qəsəbəsində, Daşaltı kəndində və Ağdam şəhərində bir neçə layihə özəl sektor tərəfindən icra edilir.

"Dövlət öz üzərinə düşən vəzifəni icra edəcək, biz keçmiş məcburi köçkünləri qaytaracağıq. Amma eyni zamanda, mən hesab edirəm ki, Qarabağda və Şərqi Zəngəzurda ancaq o bölgədən çıxmış insanlar yaşamamalıdır. Azərbaycanın istənilən yerindən



insanlar orada yaşamaq üçün imkanlara malik olmalıdır. Təbii ki, məsələn, Bakıdan, ya Sumqayıtdan oraya gedib yaşamaq istəyən getsin, ev alsın özünə, mənzil alsın, torpaq alsın, ev tiksin və orada yaşasın. Yəni, onun üçün dövlət, təbii ki, heç bir ev tikən deyil", - deyə İlham Əliyev bildirib.

Prezident bir vacib məsələyə də toxundu ki, bu da dövlətdən Qarabağda özünə ikinci ev istəyənlərlə bağlı idi: "Mən bizim bütün aidiyyəti qurumlarımıza bildirmişəm ki, biz orada yaşamaq istəyənlər üçün evlər tikirik, orada bir bağ evi əldə etmək istəyən üçün yox. Ora bağ evi deyil, ora yaşamaq yeridir. Kim orada yaşamaq istəyirsə, dövlət onun üçün pulsuz ev də tikir, hər şey də təşkil edir. Əgər kimsə orada, sadəcə olaraq, gözəl təbiəti və təmiz havanı nəzərə alaraq köçmək istəyirsə, özəl sektor onlar üçün orada, məsələn, Ağdam şəhərində indi özəl sektor bir yaşayış kompleksi inşa edir, çoxmərtəbəli ev, kim istəyir gedib ondan ev alar, orada da yaşayar. Daşaltıda da, Hadrutda da bu gün bu layihələr icra edilir".

Dövlət başçısı özəl sektorun bu imkandan istifadə etməsinin vacibliyindən də danışıb: "Özəl sektora da mənim tövsiyəm budur ki, bundan istifadə etsinlər. Çünki vaxt gələcək, dediyim o Qarabağı və Zəngəzuru cənnətə çevirəcəyik, bu, reallığa çevriləcəkdir. Mənim heç bir şübhəm yoxdur, çünki şəhərlərin bütün Baş planları təsdiqləndi. Şəhərlərin bütün Baş planları dünyanın, daha doğrusu, Avropanın ən qabaqcıl şirkətləri tərəfindən hazırlanıb, o cümlədən Şuşa şəhəri. Şuşa elə bir şəhərə çevriləcək ki, bunun dünyada bənzəri olmayacaq, memarlıq və təbiət bir vəhdət təşkil edəcək. Ona görə bizim özəl sektorumuz Bakıda, Sumqayıtda hər bir tində ev tikməkdənsə, getsinlər orada evlər tiksinlər və görərlər ki, o iqtisadi cəhətdən də səmərəli olar və eyni zamanda, biznesin sosial məsuliyyəti nöqteyi-nəzərindən də önəmli olar. Çünki bu gün biznes dairələri üçün Azərbaycanda çox gözəl şərait yaradılır və dövlət tərəfindən dəstək göstərilir".

Biznesin sosial məsuliyyətinin vacibliyini qeyd edən İlham Əliev dövlətin bütün işlərdə özəl sektora dəstək olmağa hazır olduğunu vurğulayıb: "Getsinlər, müəssisələr qursunlar, evlər tiksinlər, zavodlar, fabriklər inşa etsinlər, dövlət isə öz üzərinə düşən bütün işləri görəcək - infrastruktur, xəstəxanalar, məktəblər, su anbarları, qazlaşdırma, içməli su, elektrik enerjisi, evlər, yollar, körpülər. İndi ancaq Murovdağın altındakı tuneli nəzərə alsaq, bunun uzunluğu təxminən 12 kilometrdir. İndi təsəvvür edin, bir tunel 12 kilometrdir, amma belə tunellərin sayı, - düzdür, o ölçüdə yox, - onlarladır. Yəni, 2024-cü ildə bu işlərə çox güclü təkan veriləcək və bütün qarşıda duran vəzifələr təmin ediləcək".

***Lalə Mehralı***

# QALİB XALQIN QALİB LİDERİ!

***Yanvar ayının 15-dən etibarən Prezident seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılması prosesi rəsmi olaraq başlandı. Təşviqat prosesi fevralın 6-sı saat 8:00-da yekunlaşacaq və bununla da deyə bilərik ki, qarşıda bizi informativ nöqteyi- nəzərdən olduqca maraqlı və zəngin, siyasi baxımdan isə əhəmiyyətli 22 gün gözləyir.***

Sözsüz ki, bu günlər ərzində əlamətdar hadisələrə və ictimaiyyətin diqqətini cəlb edəcək müxtəlif bəyanatlara da şahidlik edəcəyik. Siyasişivənlərin xəstə isterikası isə indidən təxmin etmək olar ki, bu müddət ərzində öz pik həddinə çatacaqdır. Odur ki, seçkilərin təşviqat mərhələsində müxtəlif informasiya təxribatlarının müşahidə olunması da qaçılmazdır. Təəssüf ki, bu anormallığı "normal" siyasi təcrübə kimi qəbul etmək məcburiyyətindəyik. Təşviqatın ilk günündə cəmi bir neçə məqama diqqət yetirək. Obyektivlik naminə ilk növbədə qeyd edək ki, hər bir seçki prosesi onun məzmun və mahiyyətindən asılı olmayaraq ölkənin demokratik təcrübəsini zənginləşdirir. Seçkilər, o cümlədən Prezident seçkiləri, konkret ölkə və xalqın seçki səriştəsini artırır, sözügedən amil isə bilavasitə demokratik münasibətlərin təzahürüdür. Odur ki, mövcud kontekst çərçivəsində hər hansı bir "boykotabənzər" addım, əslində mahiyyət etibarı ilə antidemokratik təşəbbüsdür.

Psevdopatriot siyasişivənlərin ritorikasında öz əksini tapan bəzi qərəzli fikirləri nəzərə alaraq, mütləq olaraq bir prinsipial məsələyə diqqət yetirməliyik. Prezident İlham Əliyev sözügedən seçkilərdə mütləq favorit olmasının əsas səbəbi rəqiblərin zəif olması deyil. Səbəb – dövlət başçısının bütün meyarlar üzrə mütləq üstünlüyü və xalqın öz Liderinə olan sevgisidir. Odur ki, mövcud məsələ ilə bağlı istənilən manipulyasiya əsassızdır.




## Qalib Xalqın önündə dayanan şəxs yalnız Qalib lider ola bilər!

Qərbdə artıq uzun illərdir ki, "nüfuzlu və xarizmalı siyasi lider" defisiti yaşanır. Sözügedən amil Qərbin bəzi manipulyativ və spekulyasiya xarakterli bəyanatlarının əsas səbəblərindən biridir. "Gübrə" və "dopinqlə" yetişdirilən Qərbin siyasi liderləri apriori olaraq xarizmatik lider ola bilməz. Məhz elə bu səbəbdən də onları xilas etmək üçün Qərbdə son dövrlərdə siyasi dövriyyəyə ənənəvi dəyərlər sistemini təhrif edən ultra liberal və amorf məzmunlu psevdodəyərlər salınır.

Bəli, Azərbaycan xalqının öz seçimi ilə bağlı heç bir tərəddüdü yoxdur və Qərbin heç bir informasiya manipulyasiyası bu əminliyi bizim əlimizdən ala bilməz. Azərbaycan xalqı hər zaman olduğu kimi öz seçimini əminli gələcəyə verəcəkdir. Əminli gələcəyi isə yalnız güclü lider təmin edə bilər. Fikrimizi təsdiq etmək və mövzunu inkişaf etdirmək üçün Prezident İlham Əliyevin seçki platformasının əsas şüarına diqqət yetirək və bir neçə tezislə onun mahiyyətini və cəmiyyətə yönəlmiş əsas mesajları açıqlamağa çalışaq: "Qalib Xalqın Qalib Lideri!"

"Qalib Xalq" ifadəsi ilk növbədə xalqa olan hörmət, sevgi və etibarın təcəssümüdür. Sözügedən ifadə bir daha onu vurğulayır ki, tarixi Qələbəmizin səbəbkarı Azərbaycan xalqıdır. Bu ifadə "xalq" məfhumunun Azərbaycan dövlət və dövlətçilik fəlsəfəsində əsas kateqoriyalardan biri olmasına dəlalət edir.

İfadələrin ardıcıllığına diqqət yetirin: "Qalib Xalqın Qalib Lideri!" Aydın şəkildə bəlli olur ki, cənab Prezident sözügedən seçkiqabağı şüarı ilə ictimai münasibətlər sistemində "xalqı" prioritet dəyər kimi müəyyən edir. Əlbəttə ki, qalib olan xalq yalnız qalib və nüfuzlu bir liderə layiqdir. Sözsüz ki, güclü xalq eyni zamanda güclü liderə layiqdir. Avantürist, psevdopatriot, demaqoq və Qərbin siyasi texnoloqları tərəfindən bəzədilmiş şoumenlərin dövrü çoxdan bitib. Onların siyasi sehrbazlığı və onlara inananlar ötən əsrin doxsanıncı illərinin əvvəllərində "ilişib qalıb"...

Şüarın özündə ehtiva etdiyi digər önəmli mesajlarından biri də odur ki, cənab Prezident bir daha cəmiyyətin inkişafında həmrəyliyin, habelə xalq-dövlət birliyinin prinsipial əhəmiyyətini vurğulayır. Bəli, biz Azərbaycan xalqı olaraq öz seçimimizdə əminik. Bu əminliyi müəyyən edən əsas amillər sabitlik, tarixi Qələbə, zəmanətli inkişaf, təhdid və risklərin minimuma endirilməsi, habelə dövlət başçısının bütün dövrlərdə verdiyi sözlərə sadiqliyidir. Odur ki, Prezident İlham Əliyevin alternativsizliyin səbəbi rəqiblərin zəifliyi deyil, təminatlı qələbə, dövlət başçımıza xalqın gündən-günə daha da artmaqda olan etimadı, inamı və sevgisidir. Biz bu obyektiv həqiqətdən çəkinməməliyik, əksinə, bununla fəxr etməliyik. Qərbin siyasətçilərindən fərqli olaraq Azərbaycanda Prezident İlham Əliyevə siyasi texnologiyaların "sehrləri" arxasında gizlənməyə ehtiyac yoxdur. Seçimimiz açıqdır, seçimimiz aydındır: Qalib Xalqın önündə dayanan şəxs yalnız Qalib Lider ola bilər!

***politoloq A.Adil***

# Yeni Azərbaycan Partiyası təşviqat kampaniyasına start verib






***2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə əlaqədar seçki qanunvericiliyinə uyğun olaraq yanvarın 15-də seçkiqabağı təşviqat mərhələsi başlanıb. Yeni Azərbaycan Partiyası təşviqat kampaniyasına uğurla start verib.***

YAP-ın yerli seçki qərargahları seçki kampaniyasının bu mühüm mərhələsinə hazırlıq işlərini başa çatdırıblar. Yanvarın 15-də gecə saatlarından etibarən təşviqat xarakterli seçki plakatları qanunvericiliyin tələblərinə müvafiq olaraq müəyyən edilmiş ünvanlarda yerləşdirilib.

Qeyd edək ki, seçkilərə "Qalib xalqın qalib lideri!" şüarı ilə gedən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin 2023-cü il dekabrın 15-də keçirilmiş iclasında partiyanın Sədri İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin irəli sürülməsi barədə yekdilliklə qərar qəbul edilib. Mərkəzi Seçki Komissiyasının 2023-cü il dekabrın 30-da keçirilmiş iclasında İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi qeydə alınıb.






# 100 il əvvələ qayıdış

## *Azərbaycandan Ermənistana xəritə xəbərdarlığı*



Azərbaycanla Ermənistan arasında sülh danışıqları normal qaydada gedir, deyə bilmərik. Çünki İrəvan hələ də “nala-mıxa” vurur. Gah etibarlı vasitəçi axtarır, gah “güzgü prinsipi”ni işə salır, gah da müxtəlif illərin xəritəsini masaya gətirməklə vaxtı uzadır. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə bildirib ki, İrəvanla Bakı arasında danışıqlar geriləməyə başlayıb. Öz növbəsində Azərbaycan Prezidenti İlham Əliyev münaqişənin hərbi eskalasiya riski barədə xəbərdarlıq edib və regionda təhlükəsizlik təminatçılarına ehtiyac olduğuna şübhə ilə yanaşıb. Görünür, separatçı qurumun ləğvindən sonra ermənilər reallığı qəbul etmək əvəzinə revanş üçün yenidən silahlanmağa üstünlük veriblər.Azərbaycan prezidenti İlham Əliyev milli televiziya kanallarına müsahibəsində respublikanın 8 yaşayış məntəqəsinin hələ də Ermənistanın işğalı altında olduğunu bildirib. Onun sözlərinə görə, bu problem yanvarın sonunda toplanacaq Ermənistan-Azərbaycan delimitasiya komissiyasında müzakirə olunacaq. İlham Əliyev regionda yeni müharibə riski barədə də xəbərdarlıq edib. Azərbaycan prezidenti buna görə Ermənistana silah satan Fransanı günahlandırıb. “Fransa o ölkədir ki, bu gün Ermənistanı silahlandırır, onu arxayınlaşdırır, hərbi kadrlarını hazırlayır və növbəti müharibəyə hazırlayır. Ona görə də mən Fransa siyasətinin Qafqazda gərginliyin artmasına töhfə verdiyini deyəndə, məhz bunu nəzərdə tuturdum”, - deyə Əliyev vurğulayıb.Paralel olaraq, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi, səfir Elçin Əmirbəyov İrəvana silah-sursat verilməsində və beynəlxalq platformalarda anti-Azərbaycan qətnamələrinin təbliğində ifadə olunan Fransanın qərəzli ermənipərəst mövqeyini pisləyib: ”Fransa indi Azərbaycan və Ermənistan arasında vasitəçi rolundan kənarlaşdırılıb. Hətta bu məsələdə Aİ-nin roluna xələl gətirir”.Ermənistanla sülh müqaviləsinə gəlincə, Azərbaycan prezidenti hələ də onu imzalamağa hazırdır, lakin hesab edir ki, təhlükəsizlik qarantlarına ehtiyac yoxdur. “Kimsə kömək etmək istəyirsə, biz də buna qarşı deyilik. Lakin bu yardımı məcbur etmək olmaz”, - Əliyev qeyd edib.

O, həmçinin bildirib ki, İrəvan Zəngəzur dəhlizi layihəsindən imtina edərsə, Azərbaycan Ermənistan üçün başqa nəqliyyat kommunikasiyalarını açmayacaq. Eyni zamanda, Azərbaycana aid olan bütün insanlar və yüklər heç bir yoxlama olmadan dəhlizdə hərəkət etməlidir.Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə manipulyasiya üsulunu işə salaraq bildirib ki, İrəvan Azərbaycandan konstruktiv yanaşmaya ümid edir və bu, sülh müqaviləsinin bağlanması üzrə danışıqları davam etdirməyə imkan verəcək. Eyni zamanda erməni baş diplomat vurğulayıb ki, 2023-cü ilin sonu Bakının görüşləri keçirməkdən imtina etməsi ilə yadda qalıb. O cümlədən, Azərbaycan prezidenti Qranada və Brüsseldəki danışıqlara gəlməyib. Bu baxımdan təmaslar XİN rəhbərləri arasında və Təhlükəsizlik Şurası səviyyəsində dialoqla məhdudlaşıb. Amma Ermənistan tərəfi onu da bilməmiş deyil ki, adıçəkilən “sammit”lər heç bir platformaya aid deyildi. Həmin görüşlər Fransa və Ermənistanın revanşına, daha doğrusu danışıqlar prosesini nəzarət altına almağa, diqtə etməyə, əvvəlki müzakirə və razılaşmalardan imtina etməyə hesablanmışdı.Öz növbəsində, Ermənistan parlamentinin xarici əlaqələr daimi komissiyasının sədri, hakim “Mülki müqavilə” partiyasından olan deputat Sarkis Xandanyan bildirib ki, İrəvanın ABŞ və Avropa İttifaqı platformalarında danışıqlar aparması vacibdir, çünki onlar risklərin idarə olunmasına kömək edir. Bu arada Amerikanın “Stratfor” analitik mərkəzi xəbər verib ki, 2024-cü ildə tərəflər danışıqlar prosesində irəliləyişə nail ola biləcək, lakin müharibənin bərpası riski yüksək olaraq qalır. Ekspertlərin fikrincə, İrəvan Bakının təzyiqlərinə müqavimət göstərmək üçün Qərblə artan siyasi əlaqələrindən və hərbi dəstəyindən istifadə edəcək. Öz növbəsində Azərbaycan hakimiyyəti Ermənistan yaxınlığında öz hərbi qruplaşmasını qurmaqda davam edəcək. Beləliklə, “Stratfor”un analitikləri belə qənaətə gəliblər ki, İrəvan bu və ya digər şəkildə Azərbaycan tərəfinin istəklərini təmin edəcək.






Azərbaycanlı politoloq İlqar Vəlizadə ümid edir ki, 2024-cü il hələ çoxdan gözlənilən sülh müqaviləsinin imzalanması ilə taclanacaq. Onun sözlərinə görə, bu, bütün digər məsələlərin, o cümlədən nəqliyyat kommunikasiyalarının açılması və sərhədin çəkilməsinin siyasi və diplomatik yolla həllinə imkan yaradacaq. “Rəsmilərin bəyanatlarına əsasən, sülh müqaviləsi 90% hazırdır. Ümid etmək istərdim ki, qalan 10% ən qısa zamanda razılaşdırılacaq, çünki fundamental məsələlərdə artıq heç bir fikir ayrılığı yoxdur”, - Vəlizadə bildirib.Eyni zamanda politoloq xatırladıb ki, Azərbaycanın Gürcüstanla dostluq münasibətləri var, lakin sərhədlərin delimitasiyası prosesi başa çatmayıb. Ermənistanla bağlı vəziyyət nəzərəçarpacaq dərəcədə pisdir, çünki iki respublika hətta bir-birini rəsmi olaraq tanımır. Bu baxımdan Vəlizadə hesab edir ki, sülh müqaviləsi siyasi və diplomatik münasibətlərin qurulması üçün başlanğıc nöqtəsi olacaq.Bu arada “APRI Ermənistan” analitik mərkəzinin baş elmi işçisi Beniamin Poqosyan isə bildirib ki, 2024-cü ildə sülh müqaviləsinin hərtərəfli sənəd şəklində imzalanması ehtimalı azdır, çünki sərhəd və nəqliyyat kommunikasiyalarında hələ də çoxlu uyğunsuzluqlar var. Amma bu formada razılaşma münaqişənin hərbi eskalasiya təhlükəsini aradan qaldırmayacaq. “Ermənistan sülh müqaviləsində heç olmasa ölkələr arasında sərhədin hansı xəritələr əsasında çəkiləcəyini müəyyən etmək istəyir. Azərbaycan buna ehtiyac görmür. İkinci ziddiyyət İrəvanın milli qanunlar çərçivəsində kommunikasiyaları blokdan çıxarmağa hazır olması ilə bağlıdır.



Bakı sərhəd nəzarəti olmadan dəhlizin açılmasını istəyir. Əgər bütün bu məsələlər sülh müqaviləsi çərçivəsindən kənara çıxarılsa, ziddiyyətlər qalacaq. Məsələn, Ermənistan Azərbaycanın 220 kvadrat kilometr ərazini işğal etdiyini bəyan edəcək və Azərbaycan indiki kimi bununla razılaşmayacaqdır. Bu, münaqişənin genişlənməsinə səbəb olacaq”, - Poqosyan vurğulayıb.Ekspertlər bir daha vurğulayırlar ki, İlham Əliyevin Azərbaycan telekanallarına müsahibəsi Cənubi Qafqazda Ermənistanın yanlış siyasəti ucbatından nə indi, nə də yaxın gələcəkdə sabitliyin olmayacağını açıq şəkildə göstərdi. Azərbaycan tərəfi rahatlaşmaq üçün hələlik heç bir əsasın olmadığını bildirir və əlavə edir ki, proses belə davam edərsə döyüşlər də qaçılmaz olar. Ermənistan danışıqları pozmaq, ya da məcrasını özünün təyin etdiyi istiqamətə yönəltmək üçün “Dağlıq Qarabağ” ermənilərinin öz evlərinə geri dönmələrini hələlik sətiraltı, çəkinə-çəkinə istəyir. Amma Azərbaycanın əks-reaksiya verəcəyini də bilir. Qeyd edək ki, Qərbi Azərbaycan icmasının son bəyanatlarında da deyildiyi kimi, on minlərlə azərbaycanlı Ermənistan ərazisində qalan yurdlarına geri dönmək istəyirlər. Bu barədə beynəlxalq təşkilatlara da dəstək üçün müraciət edilib.Ermənistan isə yenə də, hələlik ekspertlər səviyyəsində, Azərbaycana qarşı ərazi iddialarında olduğunu gizlətmir. Guya “Qars, Naxçıvan və Ağrı dağı Ermənistandan alınıb” və Azərbaycana verilib. Guya “Sovet Rusiyası ilə Türkiyə arasında onun iştirakı olmadan 1921-ci ildə əvvəlcə Moskva konfransı, sonra isə Qars müqaviləsi” keçirilib və torpaqları satılıb. Əlbəttə, həmişəki kimi, Ermənistan rəhbərliyi və ermənilər yenə yalanın, utopiyanın ardınca çaparaq gedirlər. Ermənistan hakimiyyəti əvvəllər olduğu kimi, bu gün də Fransaya böyük ümid bəsləyir, lakin Paris İrəvanı daha çox Türkiyənin iddia etdiyi Aralıq dənizi neft-qaz şelfinə böyük oyunda kart kimi baxır. 1920-ci il vəziyyəti təkrarlanır. Qərb Ermənistanın iştahını oyadır, lakin ona kömək etmək niyyətində deyil. Yalnız öz maraqlarından çıxış edir.



**V.VƏLİYEV**

# Yeni müharibə ocağı - Qırmızı dəniz

***ABŞ və Böyük Britaniyanın təyyarələri və hərbi gəmiləri Yəməndə husilərin hərbi obyektlərinə zərbələr endirib. ABŞ prezidenti Cozef Bayden xüsusi bəyanatında bu əməliyyatı Qırmızı dənizdə ticarət gəmilərinə edilən hücumlara birbaşa cavab adlandırıb. Husilər Qəzzada müharibə bitənə qədər hücumları davam etdirəcəklərini vəd ediblər. Pentaqon bildirib ki, ABŞ və müttəfiqlərinin Yəməndəki zərbələri husilərin pilotsuz təyyarələrini, ballistik və qanadlı raketləri, sahil radarlarını və havadan müşahidə vasitələrini hədəf alıb.***



"Reuters"in mənbələrə istinadən verdiyi məlumata görə, zərbələr qırıcı təyyarələr, gəmilər və sualtı qayıqlardan endirilib. CNN-in məlumatına görə, ABŞ zərbələri həyata keçirmək üçün "Tomahawk" bombardmançılarından və qanadlı raketlərdən istifadə edib.

Yenilənmiş məlumatlara görə, Səada əyalətindəki Kəhlan hərbi bazası, Yəmənin paytaxtı Sənanın şimalındakı Əl-Deyləmi aviabazası, Qırmızı dənizdəki Hudeyda şəhərinin hava limanı ərazisi və Taiz və Abbs hava limanları da daxil olmaqla 60 hədəfə hücum edilib. Böyük Britaniya Müdafiə Nazirliyinin məlumatına görə, bütün bu obyektlər husilər tərəfindən Qırmızı dəniz üzərində qanadlı raketlər və pilotsuz təyyarələr atmaq üçün istifadə edilib. Zərbələrdən dərhal sonra ABŞ və Böyük Britaniya liderləri eyni vaxtda bəyanatlar veriblər. Bayden bildirib ki, zərbələr regionda ticarət və naviqasiya azadlığını təhdid edən Husilərin Qırmızı dənizdə gəmiçiliyə misli görünməmiş hücumlarına birbaşa cavabdır. Müdafiə xarakterli zərbələr Avstraliya, Bəhreyn, Kanada və Hollandiyanın dəstəyi ilə həyata keçirilib.

Bayden Ağ Evin yaydığı bəyanatda Husilərin ticarət gəmiçiliyinə 27 hücumundan 50-dən çox ölkənin təsirləndiyini bildirib. 20-dən çox ölkədən olan ekipajlar təhdid edilib və ya girov götürülüb. 2000-dən çox gəmi minlərlə mil məsafəni dəyişdirmək məcburiyyətində qalıb ki, bu da malların çatdırılmasında həftələrlə gecikmələrə səbəb ola bilər. Və yanvarın 9-da husilər birbaşa Amerika gəmilərinə yönəlmiş ən böyük hücumunu həyata keçiriblər. ABŞ prezidenti amerikalıları və beynəlxalq ticarəti qorumaq üçün lazım gələrsə, əlavə tədbirlər görməkdən çəkinməyəcəyinə söz verib.



Öz növbəsində Britaniyanın baş naziri Rişi Sunak qeyd edib ki, Londonun nöqteyi-nəzərindən husilərə qarşı zərbə özünümüdafiə xarakteri daşıyır. O, Britaniya gəmilərinin ticarət gəmilərini qoruyan Rifah Mühafizəsi missiyasının bir hissəsi olaraq Qırmızı dənizdə patrul fəaliyyətini davam etdirəcəyinə əmin edib və Husiləri gərginliyi azaltmaq üçün addımlar atmağa çağırıb. Qırmızı dənizdə gəmiçiliyi qorumaq üçün yaradılan koalisiya ölkələri (ABŞ və Böyük Britaniyadan başqa bunlar Avstraliya, Bəhreyn, Almaniya, Danimarka, Kanada, Hollandiya, Yeni Zelandiya və Cənubi Koreya və s.) birgə bəyanat imzalayıblar. Husilərin cavabı özünü çox gözlətməyib. "Amerikanın istənilən hücumu cavabsız qalmayacaq. Bu, 20 pilotsuz təyyarə və bir neçə raketdən istifadə etməklə həyata keçirilən hücumdan daha böyük olacaq", - Yəmənin şimal və qərbinə nəzarət edən və İranın dəstəklədiyi qrupun lideri Əbdül-Malik əl-Husi deyib.

Yəmənin xarici işlər nazirinin müavini Hüseyn əl-Əzi xəbərdarlıq edib ki, London və Vaşinqton Yəmənə qarşı kütləvi hücumların "ağır bədəlini ödəməyə" hazır olmalıdırlar. "Siz regionu tərk edənə qədər hücumumuzu dayandırmayacağıq və sizi alçaldılmış görməyincə sizi tapdalamayacağıq. Yəmən indi İngiltərə və Amerikaya dənizdə dərs verir", - Husilərin hərbi rəhbərliyinin üzvü general-mayor Jahaf Abdulsalam sosial mediada yazıb. Daha sonra husilər Qırmızı dənizdə ABŞ və Britaniya gəmilərinə cavab zərbələri endiriblər. Bununla belə, cümə günü səhərə qədər bunu təsdiq və ya təkzib edən olmayıb.

İsrailin HƏMAS-a qarşı hərbi əməliyyatına başlamasından sonra husilər İsraillə müharibəyə qoşulduqlarını açıqlayıblar. Onlar yəhudi dövlətinin "Qəzza zolağındakı qardaşlarına" qarşı təcavüzü dayandırılana qədər İsraillə və ya İsraildə gedən istənilən gəmini atəşə tutacaqlarına söz veriblər. Rusiya husilərə qarşı zərbələrlə bağlı BMT Təhlükəsizlik Şurasının təcili iclasının keçirilməsini təklif edib. İki gün əvvəl BMT Təhlükəsizlik Şurası husilərin hücumlarını dayandırmasını tələb edən qətnamə qəbul edib. Rusiya, Çin, Əlcəzair və Mozambik bitərəf qalıb, əleyhinə səs verən olmayıb. "Reuters"in məlumatına görə, Yəməndəki eskalasiyadan sonra "Brent" markalı neftin qiyməti 2% artaraq 78,94 dollar/barelə çatıb.




## Husilərə zərbələr bölgəyə necə təsir edə bilər?

İsrail və Qəzza arasındakı münaqişə yeni cəbhəyə keçib. Birləşmiş Ştatlar Yəmənin "Ənsar Allah" hərəkatının (husilər) mövqelərinə zərbələr endirib. Hərəkat Qırmızı dənizdə naviqasiya azadlığını təhdid edərək, İsraillə əlaqəli gəmiləri hədəf alır. Bu arada ABŞ və müttəfiqlərinin hava hücumları bölgədə gərginliyi daha da artırıb. Amerika koalisiyasının hücumlarını təkcə husiləri dəstəkləyən İran deyil, Səudiyyə Ərəbistanı, Qətər, Rusiya və hətta ABŞ Konqresinin bəzi üzvləri pisləyib. Eyni zamanda, Vaşinqton heç vaxt qarşıya qoyduğu məqsədə - Qırmızı dənizdə naviqasiyanı təmin etməyə nail olmayıb. Bunun əvəzinə husilər indi hücumlarının intensivliyini artıracaqlarına söz verirlər.

## "Yaxşı nəticə"

Birləşmiş Ştatlar Yəmənin şimalında və mərkəzi hissəsində hakim olan "Ənsar Allah"ı şiə hərəkatının hədəflərini vurmaqla "yaxşı nəticə" əldə edib. Bu barədə cümə günü Pentaqonun mətbuat katibi Patrik Rayder yanvarın 12-nə keçən gecə keçirilən əməliyyatın nəticələrini şərh edərkən bildirib. Bundan əlavə, o, CNN-ə danışarkən bildirib ki, lazım gələrsə, Birləşmiş Ştatlar oxşar xarakterli "sonrakı tədbirlər görməyə hazır olacaq. Zərbələr ABŞ prezidenti Co Baydenin göstərişi ilə həyata keçirilib. "Mənim göstərişimlə ABŞ qüvvələri Böyük Britaniya ilə birlikdə və Avstraliya, Bəhreyn, Kanada və Hollandiyanın dəstəyi ilə Yəməndə üsyançılar tərəfindən dünyanın ən mühüm su yollarından birində naviqasiya azadlığını təhdid etmək üçün istifadə edilən bir sıra hədəflərə zərbələr endiriblər", deyə Ağ Evin rəhbəri Qırmızı dəniz və Bab əl-Məndeb boğazı bölgəsini nəzərdə tutur.



Prezident Bayden əlavə edib ki, müzakirə "Qırmızı dənizdə husilərin gəmiçiliyə misli görünməmiş hücumlarına" cavab verməkdən gedir. Öz növbəsində "Ənsar Allah"ın sözçüsü Yəhya Səriya bildirib ki, Amerika koalisiyasının hücumu nəticəsində 5 nəfər ölüb, daha 6 nəfər yaralanıb. Amerikalılarla husilər arasında ilk həqiqi hərbi toqquşma 2023-cü il dekabrın 31-də ABŞ helikopterlərinin Qırmızı dənizdə Maersk gəmisindən gələn yardım siqnalına cavab verməsi və "Ənsar Allah"-ın gəmilərinə hücum etməsi ilə baş verib. Nəticədə hərəkatın on üzvü həlak olub.

Husilər son günlər Qırmızı dənizdə hücumlarının sayını artırıb. Yanvarın 9-da üsyançılar ABŞ Hərbi Dəniz Qüvvələrinə hücum ediblər. Pentaqonun məlumatına görə, koalisiya qüvvələri Yəməndən atılan 21 raket və pilotsuz təyyarəni vurub. 9 yanvar hücumu, görünür, Vaşinqton üçün son damla olub. Bundan əlavə, Ağ Ev Süveyş kanalı vasitəsilə yük daşımalarında fasilələrdən əziyyət çəkən müttəfiqlərin və kommersiya şirkətlərinin təzyiqi altında idi. Husilərin hücumları qlobal ticarətə böyük təsir göstərib, bütün qlobal daşımaların təxminən 15%-i Bab əl-Məndeb boğazından keçir. Misirin Süveyş kanalı vasitəsilə gəmi tranzitindən əldə etdiyi gəlir noyabrdan 2023-cü ilin yanvarına qədər 40% azalıb. Dünyanın beş ən böyük logistika şirkəti, o cümlədən sənaye nəhəngi Maersk gəmilərinin marşrutlarını dəyişmək məcburiyyətində qalıblar – yüklər indi Afrikadan yan keçir və bu, Asiyadan Avropaya malların çatdırılma müddətini on gün artırır.

## Xəbərdarlıq vuruşu

ABŞ-ın husilərin mövqelərinə zərbəsi hərəkatın bütün hərbi infrastrukturunu məhv etmək üçün real cəhddən daha çox xəbərdarlıq atəşinə bənzəyir. CNN adı açıqlanmayan yüksək rütbəli ABŞ hərbi rəsmisinə istinadən xəbər verir ki, "girov zərərini minimuma endirmək üçün" amerikalılar hədəfləri məhv etmək üçün dəqiqliklə idarə olunan sursatdan istifadə ediblər. ABŞ-ın fikrincə, husilərə bu cür "cərrahi" cavab daha da gərginləşmə riskini azaldacaq.

Texniki cəhətdən, təsirə məruz qalan bütün obyektlər, xüsusən də hava hücumundan müdafiə qurğuları və pilotsuz təyyarələrin buraxılış məntəqələri qanuni hərbi hədəflər hesab edilə bilər. ABŞ-ın ehtiyatlı olmasını regiondakı çətin vəziyyət diktə edir. Bir tərəfdən, Vaşinqton husilərin arxasında duran İranı birbaşa qarşıdurmaya çəkməkdən qorxur. Digər tərəfdən, Bayden administrasiyası Yəməndə öz maraqları olan Səudiyyə Ərəbistanı və BƏƏ ilə yaxşı münasibətlər saxlamağa çalışır.

Bu və ya digər şəkildə husilərin mövqelərinə zərbələr çoxları arasında mənfi reaksiyaya səbəb olub. Rusiya zərbələri müzakirə etmək üçün BMT Təhlükəsizlik Şurasının fövqəladə iclasını tələb edib. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova ABŞ-ın hücumunu qlobal sülh və təhlükəsizliyə təhdid, həmçinin "regionda vəziyyətin daha da gərginləşməsi üçün bəhanə" adlandırıb.

Hətta ABŞ Demokrat Partiyasının bəzi nümayəndələri Amerika koalisiyasının hücumlarını pisləyiblər. Onlar qeyd ediblər ki, prezident Bayden Konqreslə məsləhətləşməyib və təltiləri qanunvericilik təsdiqi olmadan həyata keçirib. İran Xarici İşlər Nazirliyi də Vaşinqtonu tənqid edib. Departament gecə hava hücumlarını "Yəmənin suverenliyi və ərazi bütövlüyünün pozulması" adlandırıb və həmçinin vurğulayıb: "Hücumlar regionda qeyri-sabitliyin davam etməsinə töhfə verəcək". Xatırladaq ki, İran yanvarın 1-də özünün "Əlborz" təyyarədaşıyan gəmisini Bab əl-Məndəb boğazına gətirib. Və yanvarın 10-da İslam Respublikası Oman dənizinin sularında Amerika neft tankerini ələ keçirdi. HƏMAS, eləcə də Livanın "Hizbullah" hərəkatı da Yəməndəki zərbələri kəskin şəkildə pisləyib və əlavə ediblər ki, ABŞ və Böyük Britaniya etdiklərinə görə "hesab verəcək".

Səudiyyə Ərəbistanı Xarici İşlər Nazirliyi ABŞ-ın Yəmənə hücumlarının vəziyyəti sabitliyi pozacağından narahatlığını bildirib. Ər-Riyad "bütün tərəfləri eskalasiyadan qaçmağa" çağırıb. Xatırladaq ki, krallıq 2015-ci ildən husilərə qarşı müharibə aparır. 2022-ci ilin aprelində Səudiyyə Ərəbistanı hakimiyyəti və "Ənsar Allah" atəşkəs razılaşması əldə ediblər və həmin ilin sentyabrında Yəmən hərəkatının nümayəndə heyəti münaqişə zamanı ilk dəfə danışıqlar aparmaq üçün Ər-Riyada səfər edib. Son aylarda tərəflər bu istiqamətdə irəliləyiş əldə edib və müharibəni dayandırmaq üçün sülh sazişi imzalamağa hazırlaşırdılar.

Qeyd edək ki, Co Bayden 2021-ci ilin fevralında "Yəməndəki müharibəni bitirmək üçün Amerika diplomatiyasını gücləndirəcəyinə" söz verməşdi. Onun rəhbərliyi altında ABŞ aviasiyası faktiki olaraq ərəb ölkəsinin ərazisinə hava zərbələri endirməyi dayandırdı. Bununla belə, indi cənab Bayden, deyəsən, verdiyi vədlərdən dönərək, sələflərinin yolu ilə gedir və bununla da Yəməndəki müharibənin sonunu gecikdirir.

**V.SALAH**

ANALİTİK

# Miqren ağrılarının səbəbi nədir?

***"Miqren ağrıları dözülməz olur və bəzən saatlar və günlərlə davam edə bilir. Bəzi hallarda miqren zamanı görmə pozğunluğu, iflic kimi hallar da qeyd edilir." Bu mövzuyla bağlı SİA-ya açıqlamasında tanınmış nevroloq Qalib Əsədov qeyd edib.***



HƏKİM AÇIQLADI

1. Miqren periodik olaraq narahatlıq yaradan və başın yarı hissəsini əhatə edən baş ağrılarıdır. Miqren zamanı ağrılar əsasən başın bir yarısında olur və ürəkbulanma, qusma, işıqdan qorxma, küyə qarşı dözümsüzlük kimi əlamətlərlə müşayət olunur. Bəzi hallarda miqren zamanı görmə pozğunluğu, iflic kimi hallar da qeyd edilir. Miqren ağrıla-



rı dözülməz olur və bəzən saatlar və günlərlə davam edə bilir. Miqrenin müalicəsi ilə daha çox nevropatoloqlar məşğul olurlar və müalicə prosesində individual yanaşma seçilir. Bəzi hallarda miqren tipli baş ağrıları aura adlanan hallardan sonra meydana çıxır. Bunlara göz qarşısında qara nöqtələrin üçüşması, işiq saçması kimi halları misal gətirmək olar.

**Miqrenin əlamətləri**

Miqren tutmaları zamanı aşağıda verilən əlamətlərin hamısı və ya onlardan bir neçəsi rast gəlinir:

- Mülayimdən kəskinə qədər ola bilən və başın bir yarısını tutan ağrılar
- Döyüntülərlə xarakterizə edilən baş ağrıları
- Fiziki hərəkət zamanı ağrıların daha da kəskinləşməsi
- Ürəbulanma
- Qusma
- İşığa və səsə qarşı həssalıq

Əgər müalicə edilmirsə miqren 4 saatdan 72 saata qədər davam edə bilir. Baş ağrılarının tutma tezliyi insandan-insana fərqli ola bilir. Bəzən miqren tutmaları bir ayda bir neçə dəfə, bəzənsə iki ildə bir dəfə olur. Bütün miqren halları oxşar gedişə malik deyil. Əksər hallarda miqren aurasız baş verir ki, bunu da adi miqren adlandırırlar. Aura ilə baş verən miqren isə klassik miqren



adlandırılır. Bu zaman tutmadan 15-30 dəqiqə öncə bu və ya digər aura başlayır.

Auralar baş ağrısı zamanı da davam edə bilər. Adətən, aşağıdakı auralar qeyd edilir:

- Göz qarşısında qığılcımlar
- Göz önündə yavaş-yavaş yayılan ləkələr
- Ovuc və ya pəncədə iynə batırılmasını xatırladan hisslər
- Bəzən dil və ya danışıq problemləri

**2. Miqrenə nələr səbəb olur?**

- Hormonal dəyişiklik. Hormonlar və baş ağrısı arasında dəqiq əlaqə məlum olmasa da müəyyən edilib ki, esterogen səviyyəsində baş verən dəyişikliklər miqreni olan qadınlarda tutmanın baş verməsinə səbəb olur. Miqren tutmaları qadınlarda əsasən menustrasiya önu və ya menustrasiya zamanı baş verir. Bəzi qadınlarda miqren tutmaları hamiləlik və ya menopauza dövründə tezləşir. Hormonal dərmanların qəbulu da miqren tutmalarını tezləşdirir.
- Qida. Bəzi qida növləri miqrenli xəstələrdə tutmalarını tezləşdirir. Bunlara spirtli içkilər (xüsusilə pivə və qırmızı şərab); çox saxlanmış pendirlər; şokalad; qıcqırmış qidalar; kofein; bir çox konservləşmiş qidalar. Ac qalma da başağrı tutmalarını artıra bilər.
- Stres. Ağır həftə və ya istirahətdən sonrakı ilk həftənin sonunda miqren tutmaları baş verə bilər.
- Sensor qıcıqlar. Güclü işıq və gün şüaları baş ağrıları törədə bilər. Həm xoş, həm də qeyri-xoş iyilər miqren tutmalarını artıra bilər.
- Yuxu rejiminin pozulması. Həm uzun müddət yatma, həm də yuxusuzluq miqren tutmalarını yeniləyə bilər.
- Fiziki faktorlar. İntensiv fiziki fəaliyyət, cinsi aktivlik miqren tutmalarını təhrik edə bilər.
- Ətraf mühit. Havanın, fəsil və ya barometrik təzyiqin, eləcə də zaman zonasının dəyişməsi miqren tutmalarına təkan verə bilər.



- Dərmanlar. Bəzi dərmanlar miqren tutmalarını artıra bilər.

Miqren xronki patologiya olub çox zaman diaqnoz qoyulmadan və müalicə edilmədən qalır. Yuxarıda sadalanan əlamətləri olanlar həkimə müraciət etməli və lazımi tövsiyyələr almalıdırlar.

Aşağıdakı hallarda dərhal həkimə müraciət etmək lazımdır:

- Qəfləti başlayan kəskin baş ağrıları
- Huşsuzluqla müşayət olunan baş ağrıları
- Yaddaşın zəifləməsi ilə müşayət olunan baş ağrıları
- Hərarətin yüksəlməsi ilə müşayət olunan baş ağrıları
- Ətraflarda iflicin yaranması ilə müşayət olunan baş ağrıları
- Ürəkbulanma ilə müşayət olunan baş ağrıları
- 50 yaşından sonra meydana çıxan baş ağrıları

3. Miqren və digər baş ağrıları arasındakı fərq.

Miqren adətən başın bir yarısında olur. Dövri olaraq başlayır və 2-3 sutka çəkir. Ümumiyyətlə, baş ağrısının çox növü var. Qırxa yaxın xəstəlik var ki, burda yeganə əlamət baş ağrısı. Ona görə də, dəqiq diaqnozu ancaq həkim ətraflı müayinə etdikdən sonra qoya bilər".

***Sevilin Abbasova***

## "Köç prosesi Azərbaycan dövləti tərəfindən ən layiqli formada həyata keçiriləcək"

"Azərbaycan Vətən müharibəsində qələbəsi və antiterror tədbirlərindən sonra öz dövlət suverenliyi 100% təmin etdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Vüqar İsgəndərov deyib. Onun sözlərinə görə, Azərbaycan bununla da dünyanın ən qürurlu, vüqarlı xalqına çevrildi: "Paralel olaraq 2020-ci il qələbəmizdən sonra işğaldan azad edilmiş Qarabağ və şərqi Zəngəzur iqtisadi rayonlarında çox böyük bərpa, quruculuq, tikinti işləri görülür. Bu işlər çərçivəsində cənab prezident tərəfindən irəliyə vəzifə kimi qoyulmuş "Böyük qayıdış" konsepsiyası icra olunmağa başlayıb. Dövlətimiz, bir neçə dost dövlətlərin şirkətləri azad edilmiş bölgələrimizdə yaşayış binaları, ağıllı kənd və şəhər konsepsiyaları icra edirlər. Füzulidə, qismən Şuşada, Laçında məskunlaşma prosesləri həyata keçirilir. Dövlət başçısının dediyi kimi 2026-cı ilin sonuna qədər həmin bölgələrimizə 140 min vətəndaşımız qayıdacaq. Bu proses gələcəkdə də davamlı olacaq. Çünki həmin bölgələrdə insanlar yüz, min illərlə yaşayıblar, bundan sonra da daimi yaşayacaqlar. Bu proses Azərbaycan dövləti tərəfindən ən layiqli formada həyata keçiriləcək".

Deputat bildirib ki, işlərin daha sürətli getməsinə mane olan cəhətlər erməni vandalları tərəfindən basdırılmış minalardır. Dövlətimizin öz hesabına minalar təmizlənir. Paralel olaraq da tikinti işləri baş verir. Bütün bunlar həm də ölkəmizin gücünə, qüdrətinə işarədir. Biz iqtisadi potensialımıza, insan resurslarımıza, yeni texnologiyalara əsaslanaraq bunları həyata keçiririk. Bu da bizim dünyadakı artan nüfuzumuzun bariz nümunəsidir".



***Söylü Ağazadə***



**Elçin Bayramlı**

## Sürüşdü birdən birə...

***Ölkə ərazisində müşahidə olunan qarlı hava şəraiti bəzi problemlərə səbəb oldu. Onlardan biri də çox sayda yol-nəqliyyat qəzalarının baş verməsidir. Adi vaxtlarla müqayisədə sayı dəfələrlə artmış olan bu qəzalarda ölən və yaralananlar da az olmadı. Bəs bunun səbəbləri nədir? Axı əksər ölkələrdə qar yağır, amma bu qədər qəza baş vermir. Bununla bağlı müxtəlif səbəblər göstərilir- avtomobillərin çoxunun texniki vəziyyətinin yaxşı olmaması, yol infrastrukturun bəzi yerlərdə normal olmaması, sürücülərin çoxunun qarlı buzlu yollarda lazımi təcrübəsinin olmaması və s.***

Əlbəttə, bu səbəblərin hər biri qızaların baş verməsində mühüm paya malikdir. Lakin qarlı havalarda baş verən qəzalarda daha bir faktor da təsir göstərir ki, bu da bizim sürücülərin qış təkərlərindən istifadə etməməsidir. Son günlərdə baş verən qəzaların çoxunda yalnız bu faktorun rolu var. Adi videokadrlardan da bu, aydın görünür. Normal halda isə, təlimata görə, avtomobilə yayda yay təkərləri, qışda isə qış təkərləri qoyulmalıdır. Bəs niyə sürücülərimiz bunu etmirlər? Bunun bir sıra səbəbləri var.

Əvvəla, bizdə yerli şin istehsalı olmadığından, şinlər xaricdən idxal olunur və nəticədə qiyməti də baha olur. Orta hesabla bir avomobilə əlavə təkər dəstinin alınması üçün azı 500 manat tələb olunur. Sürücülərin çoxunun da bu imkanı yoxdur.

Sovet dövündə Bakı Şin Zavodu fəaliyyət göstərirdi və orada müxtəlif şinlər istehsal olunurdu. Təəssüf ki, 90-cı illərin əvvəlində bu zavod da bağlandı. Təkər şinlərinin xammalının da öz ölkəmizdə olduğunu nəzərə alsaq belə bir zavoda indi daha böyük ehtiyac var. Əgər yerli istehsal olsa qiymətlər xeli aşağı düşər.

Bundan başqa, qlobal istiləşmənin təsiri ilə Azərbaycanın əksər yerlərində normal qış keçmədiyindən və qarlı buzlu yol şəraiti olmadığından maddi imkanı olan sürücülərimiz də qış təkərləri alıb saxlamırlar, çünki buna ehtiyac görmürlər. Məsələn, Bakıda illərlə qar yağmır, yollar buz bağlamır deyə heç kim qış təkəri alıb saxlamaqda maraqlı deyil. Uzağı "4 fəsil "təkərləri alırlar ki, o da qış təkərini tam əvəz eləmir.

Daha bir səbəb isə, şəhərlərdə bina mənzillərində yaşayan şəxslərin 4 ədəd əlavə təkəri saxlamaq üçün yeri yoxdur. Bir çox ölkələrdə sırf bu işlə məşğul olan şirkətlər var ki, onların xüsusi anbarı olur və cüzi haqq ödəməklə sürücülər artıq təkərlərini orada saxlaya bilirlər. Bəzi ölkələrdə qış təkəri icarəsi ilə məşğul olan şirkətlər də var ki, müəyyən müddətə bu təkərləri icarəyə verir. Bizdə də bu xidmətlərin yaranmasına ehtiyac var.

Ümumiyyətlə, sürücülər qış mövsümündə mütləq qış təkərləri istifadə etməlidirlər. Əgər belə şinləri yoxdursa, onda avtomobili idarə etməməlidirlər. Çünki bu təkcə özləri üçün yox, digərləri üçün də ciddi təhlükə yaradır. Bununla bağlı daha bir çıxış yolu da təkər zəncirlərinin istifadə edilməsidir ki, bu vasitələr sürüşmənin qarşısını alır, qarlı, buzlu yolda avtomobilin normal hərəkətinə imkan verir. Belə vasitələrin dəsti 50-100 manat arasında dəyişir. Fikrimcə, hər sürücüdə belə komplekt ehtiyatı olmalıdır ki, kritik situasiyalarda vəziyyətdən çıxa bilsinlər.

Bununla yanaşı, yolların küçələrin qardan, buzdan təmizlənməməsinin də bu tip qəzaların sayının artmasında böyük rolu var. Yaxşı olar ki, şəhər kommunal təsərrüfatları bu işə məsuliyyətlə yanaşsınlar. Bunun üçün lazımi qədər texnika və ləvazimatlar alınmalıdır. Əgər yolların təmizlənməsi işləri normal yerinə yetirilsə qəzaların bir çoxunun qarşısını almaq olar. Hər bir halda qarlı, buzlu yollarda hətta qış təkəri olan avtomobillər də ehtiyatlı idarə olunmalı, sürət həddi minimuma salınmalıdır. Buzlu yollarda ən zəruri hallar istisna olmaqla avtomobildən istifadə etməmək lazımdır.İnsan həyatı hər cür komfortdan üstündür.

*Zamanla hər şeyin dəyərini itirdiyimiz kimi yun yorğanlar ənənəsini də sıradan çıxardırıq. Belə ki, artıq yun yorğanların yerini tərkibinin nə olduğu müəmmalı olan sintetik yorğanlar alıb. Artıq yeni nəsil yun yorğanları evində görmək istəmir və aradan qaldırır. Qızlar yun yorğan-döşək kimi cehizlikdən imtina edir. Bir çox araşdırmalar göstərir ki, ağır yorğanda yatan insanların bədəni xoşbəxtlik hormonu ifraz edir. Ağır yorğanlarda yatanlar 33 faiz daha keyfiyyətli yuxu yatır.*

# Yun yorğanlar tarixə qovuşur?

ARAŞDIRMA



















Yun yorğanlar qoyun yunundan hazırlanır və buna görə də təbii hesab olunur. İlk yorğan növlərindən biri olan yun yorğanlar istiliyi bərabər paylamaq və bədəni isti saxlamaqla tanınır. Bu yorğan tipi digər yorğanlardan çox daha ağır bir quruluşa malikdir.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Yun yorğanlar sağlam yorğan növüdür. Onu bu qədər sağlam edən amillər aşağıdakılardır:

- Təbiət dostudur. Son dərəcə sağlam və təbii material olan yun bioloji parçalana bilir. Buna görə də sənaye çirklənməsinə səbəb olmur.

- Elastik və yumşaq bir quruluşa malikdir. İçindəki təbii qıvrımlar sayəsində orjinal vəziyyətinə qayıda bilən yun bu baxımdan çox rahatdır.

- 100% yundan hazırlanmış növlər istiliyi tarazlayır və bərabər paylayır. Xüsusilə qış şərtlərinin sərt olduğu bölgələrdə əla istilik növü kimi xidmət edir. Yay aylarında bədəni tərlətməmək xüsusiyyəti də var.

- Tərkibində heç bir zəhərli və kimyəvi maddə yoxdur.

- Yunun tərkibindəki kiçik tüklər və lanolin adlı maddə sayəsində hər hansı mikrobların əmələ gəlməsinin qarşısını alır. - - Beləliklə, son dərəcə sağlam və gigiyenik istifadə təklif edir.

Gördüyünüz kimi, yun yorğanların faydaları çoxdur. Bu səbəbdən mütəxəssislər sağlamlıq baxımından yun yorğan seçməyi məsləhət görürlər.

İndi isə gəlin yun yorğanların yuyulma üsullarına nəzər salaq.

### Yun yorğanı necə yumaq olar?

Yun yorğanların yuyulmasının iki fərqli üsulu var. Bunlar əllə və maşınla yumadır. Hər iki üsulu araşdırsaq:

Əllə yuyarkən, ilk növbədə, böyük vannaya ılıq su tökmək və yorğanı içəri qoymaq lazımdır. Daha sonra üzərinə yun yorğanlar üçün xüsusi hazırlanmış maye yuyucu toz töküb yuyun. Daha sonra bütün yuyucu vasitə bitənə qədər yorğanı soyuq suda yaxalamalı və bu müddət ərzində yorğanı heç vaxt sıxmamalısınız. Sonra yuyulmuş yorğanı qurumağa buraxa bilərsiniz.

Əgər yorğanınızı maşında yumaq istəyirsinizsə, aşağıdakı detallara diqqət etməlisiniz:

Əvvəlcə maşınınızda yun yuma proqramı varsa, onu bu proqramda, əks halda zərif proqramda maksimum 30 dərəcədə yumalısınız. Toz yuyucu vasitə yerinə maye yuyucu vasitəyə üstünlük verməlisiniz. Unutmamalısınız ki, toz yuyucu vasitələr yunun içinə girib yığılaraq allergiyaya səbəb ola bilər.

Yuma zamanı yun sərtləşə biləcəyi üçün yumşaldıcıdan istifadə etməyi unutmamalısınız. Yundan suyu çıxarmaq üçün maşınınızın fırlanma sürətini ən yüksək səviyyədə saxlamaq faydalı olacaq. Yuyulmuş yun yorğanınızı quruducuda deyil, təbii şəkildə qurutmalısınız.

Yun təbii quruluşu ilə antibakterial və antimikrobiyal xüsusiyyətlərə malikdir. Belə ki, yataqda toz gənələrinin və digər allergenlərin çoxalmasının qarşısını alır. Bu xüsusiyyətləri ilə astma və allergiya kimi tənəffüs problemi olan insanlar yun yorğanlardan istifadə edə bilərlər.

Əsrlər boyu onlara üstünlük verilməsinin səbəblərindən biri də uzunömürlü olmalarıdır. Onlar digər yorğanlardan daha uzun müddət istifadə olunur və tez-tez dəyişdirilməyə ehtiyac yoxdur. Nəfəs ala bilən quruluşu sayəsində yataqdakı nəm səviyyəsini tarazlamağa kömək edir. Bu, yuxu zamanı özünüzü daha rahat hiss etmənizə şərait yaradır. Düzgün qulluq edildikdə, yumşaqlığını saxlayır və zamanla deformasiyaya uğramırlar.

### İzolyasiya

Yun yorğanı digər yorğanlardan ayıran ən böyük fərq izolyasiyadır. Yun təbii izolyasiya materialıdır. Temperatur nəzarətini optimallaşdırmaq üçün əla seçimdir. Yun yorğanlar gecə bədən istiliyini sabit saxlayaraq yuxu keyfiyyətini yaxşılaşdırır.

### Davamlılıq

Yün yorğanlar digər yorğanlara nisbətən daha davamlıdır. Yunun özünü yeniləmək qabiliyyəti var.

### Antiallergik

Yun yorğanlar digər yorğan növlərinə nisbətən daha az allergik reaksiyalara səbəb olur. Onlar təbii olaraq toz gənələrinə və kiflərə qarşı davamlıdırlar, buna görə də allergiya və ya astması olan insanlar üçün əla seçimdirlər.

Nəticədə, yun yorğanlar digər yorğan növləri ilə müqayisədə daha yaxşı izolyasiya, nəfəs alma, davamlılıq və allergiyanın qarşısını alır. Bu səbəbləri nəzərə alsaq, yataq otağınız üçün yorğan seçərkən yun yorğanlar digər yorğanlardan daha çox üstünlüklərə malik ola bilər.

### Yun yorğanı necə saxlamaq olar?

Havalandırın: Yorğanları saxladığınız yeri tez-tez havalandırmaq onları güvələrdən qorumağın ən təsirli yollarından biridir. Onu çarpayıya qoymaq və müxtəlif əl zərbələri ilə havalandırmaq işin öhdəsindən gələcəkdir. Yorğanlardan istifadə etməsəniz belə, heç olmasa ildə iki dəfə onları çıxarıb açıq havada buraxmalısınız.

Naftalin istifadə edin: Yorğanı saxladığınız dolaba naftalin qoyaraq güvələrdən qoruya bilərsiniz.

Yorğanı təmizləyin: Yorğanları təmiz vəziyyətdə saxlamaq lazımdır. İstifadə olunmuş yorğanların tərkibində toz və bakteriya kimi bir çox maddə ola bilər.

Yorğanı düzgün qurudun: Mövsüm uyğundursa, yorğanı çöldə qurutmaq daha yaxşıdır. Çöldə qurudarkən, onu birbaşa günəşə qoymaq olmaz. Yorğanı evdə qurutmaq niyyətindəsinizsə, uyğun bir sahə yaratmalısınız. Nəfəs ala biləcəyi bir yerə qoymaq lazımdır. Yaratdığınız sahədə yorğanı çevirərək hər tərəfin hava almasını təmin etməlisiniz. Əks halda, yorğanınız tam qurumayıbsa, nəmli yerlərdə kif əmələ gələ bilər.

### Lif, yorğan və yastıq insan sağlamlığına zərərdir

Türk Konya Yorgan İstehsalçıları Palatasının sədri Cengiz Çiftçi çox istifadə edilən yorğan və yastıqların lifdən hazırlandığını, ucuz və yuyula bildiyi üçün üstünlük verildiyini xatırladaraq, yağ tullantılarından hazırlanan süni lifin insan sağlamlığı üçün zərərli olduğunu söyləyib.

Çiftçi, lifdən hazırlanmış yastıq və yorğanların xərçəng xəstəliyinə səbəb ola biləcəyini deyib. Ucuz və yuyula bildiyi üçün üstünlük verilən yorğan və yastıqların ümumiyyətlə lifdən hazırlandığını xatırladan Çiftçi: "Lif sünidir və neft qalıqlarından hazırlanır. Tərkibindəki kimyəvi maddələr də insan sağlamlığına zərərlidir. Xərçəngdən tutmuş hər cür xəstəliyə səbəb olur. Başımızı qoyduğumuz lifli yastıq və yorğanla səhərə qədər nəfəs alırıq. Aldığımız nəfəs ağciyərlərimizə təsir edir. Orada damarlarımız tıxanır. Daxili orqanlarımıza yavaş-yavaş təsir edir. Bu, hətta genlərimizi pozur, uşaqlarımızın da genlərinə də təsir edir. Lifli yorğan və yastıqda yatan insanların ağciyər xərçəngi, zob və dəri xərçənginə tutulma ehtimalı çox yüksəkdir. Bu səbəblə bacardığınız qədər yastıq və yorğanda lifdən uzaq durun."

Təbii yun və pambıqdan istifadənin insan sağlamlığı üçün daha faydalı olduğuna diqqət çəkən Çiftçi: "Yun və pambıqdan olan yorğan və yastıqlara üstünlük verənlər daha sağlam olacaq".

### Yorğan növləri hansılardır?

Bu gün yorğanlar müxtəlif doldurma materiallarında alına bilər. Əsas yorğan doldurma materialları pambıq, ipək, lif, bambuk və qaz tüküdür.

Fiber yorğan: Pambıq parça örtüyü və lifli yorğanlar bütün yorğan növləri arasında ən yüngüldür. Lifin tərkibindəki komponentlər bədən istiliyinə tez fokuslanaraq istiliyi təmin edir və istiliyin xaricə buraxılmasının qarşısını almaq üçün kifayət qədər sıx bir quruluşa malikdir. Lifli yorğanlar paltaryuyan maşında asanlıqla yuyula bilər və qurutma müddəti pambıq parçadan bir qədər uzundur. Yuyulduqdan sonra yığılma və ya köhnəlmə kimi vəziyyətlərə rast gəlinmir.

Pambıq Yorgan: Pambıq rütubəti və istiliyi özünə çəkən, lakin xarici mühitə nə isti, nə də soyuq buraxmayan materialdır. Pambıq yorğanlar ən sağlam və təbii doluğu materialı olduğu üçün ən çox seçilən yorğanlar arasındadır.

Qaz tükü yorğanı: Qaz tükü uzun illərdir palto və yorğan kimi isti saxlaması gözlənilən geyim və tekstil məhsullarında dolgu materialı kimi istifadə edilir. Bunun ən böyük səbəbi son dərəcə yüngül olmasına baxmayaraq yüngülliyinə görə çox yüksək istilik izolyasiyası təmin etməsidir. Çoxfunksiyalı dolğu materialı olan qaz tükü ətrafdakı artıq nəmliyi saxlayır və sizə isti, quru və rahat yuxu təklif edir. Qaz tükü yorğanlar da ən diqqətli istifadə edilməsi lazım olan yorğanlardır. Maşında yuyulması zaman keçdikcə təbii tükün quruluşunu köhnəldə və yığılmağa səbəb ola bilər.

İpək Yorgan: Allergiya əleyhinə komponentləri ehtiva edən ipək ən yumşaq doldurucu materialdır. İpək yorğanlar o qədər yumşaq və yüngüldür ki, onlar sizi buludların üstündə yatmış kimi hiss etdirəcək. İpək yorğanlar zənginlik əlaməti olaraq istifadə edilir. Bu yorğan tipi anti-allergik xüsusiyyətlərə də malikdir.

Bambuk yorğan: Bambuk yorğan dərinizin nəfəs almasına imkan verən bir quruluşa malikdir. Bambuk yorğanların ən mühüm xüsusiyyəti onların yüksək nəm udma sürətidir. Bu, tərləmədən sağlam yatmağınız üçün ideal bir mühit yaradır.

**Ayşən Vəli**





# Erməni baş nazirindən növbəti SAYIQLAMA

***Ermənistanın baş naziri Nikol Paşinyanın mütəmadi olaraq, əsassız və məsuliyyətsiz bəyanatlar səsləndirməsi, yalanlar söyləməsi, ardınca da dediklərini utanmadan təkzib etməsi onun üçün sanki adi hal alıb. Dövlət başçısının bir fikri səsləndirdikdən sonra da onun ardınca əksini bəyan etməsi onun üçün adi hal hesab olunsa da, olduqca gülünc və utancvericidir. Görünür, elə erməni cəmiyyəti də buna görə öz rəhbərini tənqid atəşinə tutmaqda davam edir və onun hakimiyyətdə qalmasını ümumiyyətlə, Ermənistan üçün rüsvayçılıq hesab edir.***

"Qarabağ Ermənistandır və nöqtə", deyə sayıqlayan erməni baş nazirin öz dediklərini necə təkzib etdiyini təkcə biz, yaxud da erməni cəmiyyəti müşahidə etmədi. Bunu bütün dünya ölkələri,ələlxüsus da indi erməniləri, Paşinyanın özünü himayə edən Qərb də gördü. Fransanın timsalında ermənipərəst Avropa ölkələri də Nikol Vovayeviçin hansı şəkildə öz sözünü təkzib etdiyinin, dandığının, dediklərinin tam əksini bəyan etdiyinin şahidi oldu. Rusiya da onun hansı şəkildə sözünü dəyişdiyini, maniulyasiya etdiyini seyr etdi. Bütün dünya ölkələri, dünya ictimaiyyəti gördü ki, Qarabağla bağlı cəfəngiyyat səsləndirən Nikol Vovayeviç, qısa bir zaman kəsiyindən sonra Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etdi, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını hər addımbaşı bəyan etdi və sanki həmin o sayıqlamanı, o cəfəngiyyatı özü səsləndirməmişdi. Yəni, bir ölkənin rəhbəri heç də utanmadan öz sözünün, öz ifadələrinin əksini bəyan etdi və dərk etsə də, etməsə də bundan əvvəl dediyinin yalan, özünün də yalançı olduğunu göstərdi.

Doğrudur, Nikol Paşinyana reallıqlar bir qədər gec çatır və hadisələrin gedişi də göstərdi ki, onun başı daşdan-daşa dəydikdən sonra "ağıla gəlir", təbii ki, o da müvəqqəti və müəyyən zaman müddətində belə təzahür edir. Məsələn, diplomatik görüşlərdə Qarabağla bağlı fikirlər səsləndirən, Azərbaycana məxsus əraziləri Ermənistan ərazisi kimi göstərməyə çalışan, hətta bunu sübut etmək üçün dondan-dona girən, sifətdən-sifətə düşən Nikol sonra məğlubiyyət fonunda deyirsə ki, Qarabağ Azərbaycandır, deməli, bu adam istədiyi zaman yalan danışıb, sonra da onu təkzib etməyə, yalançılıq etməyə, bundan sonra da yalançı olduğunu qəbul etməyə alışqandır və bunu özünə heç də ar bilmir. Şuşada sərxoş vəziyyətdə qol qaldırıb oynayan, daya doğrusu, oynaqlayan və atılıb-düşən Paşinyandan soruşmaq lazımdı ki, əgər Qarabağın Azərbaycan ərazisi olduğunu bilirdisə, həmin ərazilərdə nə gəzirdi? Həm də onu da soruşmaq yerinə düşərdi ki, əgər öz əraziləri bilirdisə, niyə bunu sona qədər israrla demədi. Erməni baş nazirə xatırlatmaq istərdik ki, cəmi 44 gün deyil, 30 il keçməsinə baxmayaraq, nə Azərbaycan xalqı, nə də Azərbaycan dövləti Qarabağı unutmadı, həmin ərazilərin bizə məxsus olduğu israrla bəyan edildi və sona qədər də mübarizə aparılaraq, torpaqlarına, dəyərlərinə sahib çıxdı. Çünki ermənilərdən, onların rəhbərlərindən fərqli olaraq, yalana, sonra da təkzibə əl atılmadı və sona qədər qətiyyət nümayiş etdirildi.



Baş nazir yox, deputat olduğu zamanlarda Qarabağın heç də Ermənistan ərazisi olmadığını, Azərbaycana məxsus olduğunu, bu ərazilərlə əlaqədar yaranan məsələlərin müzakirəsinin İrəvan üçün lazımsız olduğunu dəfələrlə səsləndirən Nikol hakimiyyət kürsüsünü ələ keçirdikdən sonra tamamilə tərsinə fikirlər səsləndirməli oldu. Bir zamanlar Ermənistan parlamentində Qarabağın heç də Ermənistan ərazisi olmadığı barədə gurultulu çıxışlar edən Paşinyanın mövqeyi də, fikirləri də hakimiyyətə gəldikdən sonra tamamilə dəyişdi. O, daxili auditoriyaya hesablanan çıxışlarında tamamilə fərqli mövqedən çıxış etməyə başladı və sanki bundan əvvəl guruldayan həmin o deputat deyildi. Təbii ki, rəhbərlik etdiyi ölkədə kütlənin qəzəbindən qorxaraq, birmənalı şəkildə özözünü təkzib etməyə başladı. Sonra da müharibənin Ermənistan üçün acı nəticələri ilə qarşılaşdığı zaman yenə də elə deputat olduğu dövrdəki kimi, Qarabağın Azərbaycan ərazisi olduğunu bəyan etdi. Vovayeviç necə dəfə fikrini dəyişməli oldu? Hər dəfə də dediklərinin biri digərini təkzib etdi. Maraqlıdır, Ermənistan adlı bir ölkənin rəhbərinin, bir dövlətin başçısının utanmaq kimi bir niyyəti yoxdurmu?

Həqiqətən də, erməni baş nazirin utanmaq kimi bir niyyəti olsa idi, son günlər yenə də sayıqlamazdı. Ermənistanın baş nazirinin son günlər bir sıra həqiqətən də heyrət doğuran açıqlamalar verməsi onun əsl simasını, daha doğrusu, ənənəvi yalançı simasını yenidən ortaya qoydu. O, 2020-ci il noyabrın 10-na keçən gecə Üçtərəfli Bəyanatla bağlı sayıqlamağı, sənədlə bağlı məsələləri təhrif etməyi, bir sözlə, yalan danışmağı yenə də özünə rəva bildi. Bu dəfə də Ermənistan lideri daş atıb başını tutur ki, sənəddə Zəngəzur dəhlizi məsələsi olmayıb və üzərinə də hansısa öhdəlik götürməyib. "Üçtərəfli bəyanatda Ermənistan tərəfi Zəngəzur dəhlizini, Rusiya Federasiyası isə bu yolların təhlükəsizliyini təmin etməyi öhdəsinə götürməyib. 9 noyabr bəyanatında bu məqamlar yoxdur. Heç yerdə yazılmayıb ki, Rusiya Federasiyası Ermənistan ərazisində kommunikasiyaların təhlükəsizliyini təmin etməlidir", - deyə bu dəfə də Nikol Paşinyan olmayan üzünə üz bağlayaraq reallıqları danmağı doğru yol hesab edib. Düzdür, kütlənin qəzəbindən qorxması fonunda daxili auditoriyaya hesablanan bəyanat kimi də onun bu sayıqlamasını başa düşmək olar, amma hər halda, cidanı çuvalda gizlətmək mümkün olmadığı kimi, bu boyda yalanı da dövriyyəyə buraxmaq mümkün deyil. Mümkün olsa belə, ardınca yenə də Vovayeviçin təkzibi gəlməlidir. Çünki reallıq tamamilə başqadır və sözügedən sənədə imza atarkən o boynuna almadığı öhdəliyi üzərinə götürüb.

Qeyd etdiyimiz kimi, kütlənin qəzəbindən yaxa qurtarmaq, hakimiyyətini qorumaq üçün daxili auditoriyaya hesablanan sayıqlamalar edən Nikol, bəlkə də manipulyasiya etdiyini düşünür, amma bir tərəfdən də erməni cəmiyyətini axmaq yerinə qoyur. Çünki sənəd də göz önündədir, orada Zəngəzur dəhlizi ilə bağlı qeydlər də, üstəlik Nikol Paşinyanın imzası da. Yəqin ki, onun erməniləri düşündüyü qədər axmaq sayması da nəticəsiz qala bilməz və hansısa bir Ermənistan vətəndaşı istədiyi vaxt Üçtərəfli Bəyanatın 9-cu bəndində yazılanları öz gözləri ilə oxuya bilər. Həm də əmin olar ki, ölkə başçıları onları avam və axmaq yerinə qoyub. "Regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri blokdan çıxarılacaq. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətini təşkil etmək məqsədilə Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat rabitəsinin təhlükəsizliyinə təminat verir. Nəqliyyat rabitəsinə nəzarəti Rusiya FTB-nun Sərhəd Xidməti həyata keçirir. Tərəflərin razılığı ilə Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qərb rayonları ilə birləşdirən yeni nəqliyyat kommunikasiyalarının tikintisi təmin ediləcək", deyə Üçtərəfli Bəyanatda qeyd olunur. Deməli, hər şey göz önündədir və bu mətni oxuyan hər kəs anlaya bilər ki, Ermənistanın baş naziri sadəcə olaraq yalan danışır. Anlaya bilər ki, yenə də öz-özünü, öz dediklərini təkzib edir, reallığı inkar edir və utanmadan, qızarmadan növbəti dəfə yalana əl atır.

Maraqlıdır ki, hələ bu vaxta qədər Paşinyan daha bir sayıqlamaya yol verərək, Üçtərəfli Bəyanatı belə imzalamadığını deməyib. Axı, həmin gecə ümumiyyətlə imzalanma ilə bağlı kadrda da o yox idi. Amma görünür buna cəsarət edə bilmir və həlelik bu yalanı danışmağı bacarmır, çünki bilir ki, onun həmin vaxt erməni cəmiyyətinin əhval-ruhiyyəsini bilə-bilə kamera qarşısına keçməyə cəsarət etməməsi ilə bağlı hər kəs məlumatlıdır. Hər kəs məlumatlıdır ki, 44 günlük müharibədə qarşılaşdırları məğlubiyyətə, özü də rüsvayçı məğlubiyyətə görə onunla hesablaşmaq üçün ermənilər Nikol Vovaeviçi yaman axtarırdılar. Bunu bilməyənlər də gördülər və ən azından mətbuat vasitəsi ilə şahidi oldular ki, Paşinyanı axtaranlar Ermənistan parlamentinin binasının necə dağıtdılar, o zaman Ermənistan Respublikasının Milli Məclisinin sədri olmuş Ararat Mirzoyanı necə döydülər. Bir sözlə, əllərinə Nikol yox Ararat keçdi və əgər erməni baş naziri ələ keçirsəydilər aqibəti daha acınacaqlı olacaqdı, çünki onun özünü axtarırdılar, Mirzoyanı yox.

Sülh gündəliyinin ortada olduğu bir dönəmdə tərəflərdən birinin, Ermənistan rəhbərinin məsuliyyətsiz şəkildə bəyanat verməsi, yalana əl atması, reallığı təkzib etməsi ümumiyyətlə, qəbuledilən deyil. Üçtərəfli Bəyanatı erməni baş nazir xəlvəti şəkildə, özü də gizləndiyi yerdə imzalasa da, öz üzərinə gözə görünmədən öhdəlik götürsə də, bütün bunlar dünya ictimaiyyətinin gözü önündə baş verdi. Eyni zamanda, onun imzaladığı və Zəngəzur dəhlizi ilə bağlı üzərinə öhdəlik götürdüyü sənəd də hər kəs üçün əlçatandır və bunu təkzib etməyə sayıqlama deyilməsin, başqa nə deyilsin? Axı üç ölkə rəhbərinin imzaladığı sənədi həmin ölkələrin vətəndaşları da, dünyanın istənilən ölkəsinin vətəndaşları da açıb oxuduqda görürlər ki, Ermənistanın baş naziri Nikol Paşinyan həyasızcasına, utanmadan, qızarmadan yalan danışır. Yalanlarının nə vaxta qədər ayaq tutub yeriyəcəyinə ümid edir? İndi də məlum sənədi, orada Zəngəzurla bağlı məsələləri təkzib etməklə danışıqları hara qədər uzadacağını düşünür? Özü hamıdan yaxşı bilmirmi ki, nəyə imza atıb? Bilmirmi ki, sözügedən dəhlizlə bağlı qeyd olunanlara imza atdıqdan sonra bunu dandığı zaman yalan danışır və müvafiq olaraq, sonuncu bəyanatı ilə sadəcə, erməni cəmiyyətini ələ salır və axmaq yerinə qoyur? Bilir. Çox yaxşı bilir. Onu da bilir ki, sənəd onun özünə bir daha göstərildiyi və yalan danışdığı sübut edildiyi anda çarəsiz qalıb bir də dediklərinin əksinə bəyanat verəcək. Necə deyərlər, öyrəncəlidir və bilir ki, dedikləri növbəti sayıqlama kimi qəbul ediləcək və özü də utanmadan, qızarmadan dediklərini təkzib edəcək, özü də yaxın zamanda...

***İnam Hacıyev***

# Dəyərlər: keçmişdən bu günə, atadan oğula

*Xalqımızın mənəvi dünyasını zənginləşdirən, tariximizi və mədəniyyətimizi ucaldan həm dini, həm də milli-mənəvi dəyərlərimiz, Azərbaycanın yüksək əxlaqi xüsusiyyətlərinin təcəssümüdür. Milli mənəvi sərvətimiz olan bu dəyərlərimiz ən azı duz-çörək qədər hamımıza əzizdir. Dünya xalqları arasında öz qədim milli-mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı var etdiyi, əsrlərdir yaşatdığı və gənc nəsillərə təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə dünya mədəni irsində özünəməxsus yer tutur.*



Uzun illər boyu aparılan tədqiqatlar, araşdırmalar qədim köklərə malik Azərbaycanın bir çox adətini əsrlər boyu qoruyub saxladığını üzə çıxarır, necə deyərlər atadan oğula, oğuldan da öz oğluna keçir. Azərbaycanın milli dəyərləri orta əsrlərdə formalaşan, o gündən bu günədək demək olar ki, konteksdən çıxarılmayan, itirilməyən dəyərlərdir. Bizim "türk-islam dəyərləri" adlandırdığımız əxlaq qaydaları da millət olaraq formalaşmağımızda da əhəmiyyətli rola malikdir.





Dini dəyərlər, həmçinin milli-mənəvi dəyərlər və azərbaycançılıq bizim hər birimiz üçün qiymətli və müqəddəs amillərdir. Xalqımız əsrlər boyu qoruduğu, tarixin bəzi dönəmlərindən talanaraq, məhv edilərək əlindən alınmağa çalışılan adətləri bu günədək gətirib çıxara bilib, bu da milli özünüdərkin formalaşmasına böyük kömək edib. Düzdür, tarix boyu bu sərvətimizə göz dikən yadellilər olub, amma bir millətin dəyəri onun qanında, genetikasındadır, o səbəbdən də milli-mənəvi dəyərlərimizi bizdən almaq cəhdləri həmişə boşa çıxıb, atalar demişkən, yel qayadan heç nə apara bilmir, tozdan başqa.

İndi dövlətimiz özündə həm milli, həm də dini dəyərləri ehtiva edən mənəviyyatlı bir cəmiyyətin sütunudur. Ölkə başçısı İlham Əliyev xalqımızın milli dəyərlərinin təbliğinə, gənclərimizin bu ruhda tərbiyə olunmasına ciddi diqqət yetirir, bu istiqamətdə dövlət proqramları təsdiq edir. Dövlət siyasətində hər bir azərbaycanlının, ən əvvəl, öz xalqının dəyərlərinə sahib çıxması, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini və dini-milli dəyərlərini qoruması önə çəkilir. İndi Dövlətçilik siyasıtində "gələcək nəsillərə maddi sərvətlər və iqtisadi mirasla yanaşı, həm də daha çox milli irs, milli mentalitet ərmağan edilməlidir" prinsipi əsas götürülür.

Prezident İlham Əliyevin həyata keçirdiyi konsepsiyaya görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlətçilik prinsipində dini dəyərlərin payına da önəm verilir. Dövlətimiz ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına da xidmət edir. Bu istiqamətdə atılan hər bir addım dədə-babalarımızdan bizə gəlib çatan müqəddəs irsin gələcək nəsillərə əmanət edilməsi, azərbaycançılıq məfkurəsinin, milli dəyərlər sisteminin bütün dünyada təbliği və qəbul olunması üçün həyata keçirilən məqsədyönlü strategiyanın tərkib hissəsidir.



Müasirlik milli kökü, adət-ənənəni, dini dəyərləri itirmək demək deyil, adət-ənənə, milli-mənəvi kökümüz elə müasirlik ənənələrinin fonunda da var ola bilir. Düzdür, zaman dəyişdikcə hər bir cəmiyyətə xas olan insanın psixologiyası, yaşam tərzi, milli dəyər anlayışı da müəyyən qədər dəyişə bilər. Nəsillərin dəyişilməsi ilə dəyərlərin mahiyyəti də dəyişir, amma Azərbaycan kimi milli kökünə bağlı olan ölkələrdə bu baş vermir. Bir ölkənin, müstəqil bir dövlətin ən böyük problemləri o zaman yaranır ki, o ölkədə mənəviyyat məsələsi arxa plana keçirilir. İqtisadi, siyası məsələlər mənəviyyatdan önə keçirsə o ölkədə, o xalqda rifah halı yaxşılaşmaz, insanlar birlik olmaz. Müstəqilliyin əsas üstünlüyü mənəvi məsələlərə diqqət ayırmaqdır.

Ailə və ağsaqqallıq institutları, doğma dil, din, əxlaqi və mental dəyərlərə söykənən dövlətçilik sistemi əslində bizim milli-mənəvi sərvətimizdir, şansımızdır. Sarsılmaz dövlətlər bu dəyərlər üzərində yaranır və inkişaf edir. İndi o dövlətlər güclüdür ki, onlar tarixləri ilə bu günlərinin sintezini düzgün qura biliblər. Azərbaycan öz tarixi boyunca məhz milli-mənəvi dəyərlər fonunda qurulan dövlətçilik sistemi ilə var olub, inkişaf edib və elə də davam edəcək.

***Lalə Mehralı***

---



**Mətanət Məmmədova**

## Qar yağdı, yaxşı ki, yağdı...

***Ötən həftənin cümə-şənbə günləri bütün ölkə qara-ağ örpəyə büründü. Bu qar son 10 ildə ən çox yağan qar idi. Elə bu səbəbdən də yağması ilə bir çox hadisələr də baş verdi. Həm sevincli, həm də kədərli hadisələr. Hələ başqa hadisələr də...***

Çığıranlar, "urraa" deyənlər az olmadı. Nə etsinlər, yadırğamışıq qara. Bu səbəbdən onlar nə edəcəklərini bilmirdi. Bizimsə bu qar hər birimizin uşaqlığı idi. Günlərlə yağıb qalaq-qalaq olan qarın öhdəsindən gələn bizlər deyildikmi? Xizəklərimizi götürüb səhərdən axşamadək evə yığışmayan bizlər deyildikmi? Üst-başımız suyun içərisində, ayaqlarımız "potik"lərdə yaş olardı. Əlcəklərimizdən su axardı, lakin doymaq bilməzdik qardan. Böyüklər yolların qarını o tərəfə-bu tərəfə yığıb gediş-gəliş üçün cığır açardı. Bizsə qar əriyənədək onunla oynayardıq.

Qar nə yaxşı ki, yağdı, xatirələrimizə geri döndük. Həyatımızın dörd bir tərəfini əhatə edən uşaqlığımızla əlaqəsi olmayan hadisələr fonunda əsl uşaqlığa qayıda bildik.

Bu, bizim üçün belə oldu. Bəs başqaları üçün qarın yağması nəyi dəyişdi? Avtomobil qəzaları baş verdi. Yıxılan, travma alanlar oldu. Bu qar nə canlar incitdi, nə yaralar açdı... Allah onların hər birinin köməyi olsun.

Lakin daha başqa hadisələr də baş verdi. Birincisi, iki gün ərzində insanların gündəlik həyatı dəyişdi. İllərlə davam edən eyni qış günləri ikicə gün ərzində öz axarını başqa səmtdən saldı. Uşaq-böyüklü hər kəs küçə-parklara axışdı. Qar topu oynayan kim, qar adam düzəldən kim... Dünənədək konsertləri, atəşfəşanlıqları çəkib telefonlarının qalereyasını dolduranlar heç olması bu dəfə qarı çəkib həmin foto və videolardan istifadə etmiş oldular, qarın hər üzünü paylaşdılar.

Çox şükür etdik həmin iki gün. Çünki sosial şəbəkələrdə statuslar dəyişdi. Hər cümə bir-birinin ardınca "cüməniz mübarək" adlı onlarla foto, video paylaşanlar, öz şəxsi həyatlarını-ad günü, nişan, toylarını, hara getdi, haradan gəldi, nə yediklərini paylaşanlar ən azından başqa bir mövzuya keçid etdilər və bizim də gözlərimizin qanı çəkildi. Ətraf aləm kimi, statuslarımız da bəyaz rəngə büründü.

Həmçinin də Tiktok, İnstagram, Whatsapp, Facebook sosial şəbəkələrinin, xüsusilə Tiktokun üzünə qara pərdə çəkilməli videoları, canlı yayımları ikicə günlük ağardı. Bütün bunları gördükcə arzuladıq ki, kaş bu bəyaz qar tez-tez yağardı, bəlkə bizim uşaqlığımızdakı dövrdən əsər-əlamət qalmayan bəzi məqamları, əməllərin rəngini dəyişərdi. Utanmağın nə olduğunu unudan insanların üz pərdəsinə çevrilərdi.

Qar yağdı, yaxşı ki, yağdı. Yollar buz bağladığından insanlar evdə oturmalı, yaxınlıqda olan qohum-qonşuların qapısını açmalı oldu. Ən azından aylar sonra bir-birinin üzünü canlı olaraq görə bildilər. Bir "nə var, nə yox?" etdilər. Bir-birinin çayını içib, çörəyini kəsdilər. Uzaqlardan olan qohum-əqrəbalar da yada düşdü. Qar soyuğu ilə başqa əyləncələrdən saxladığı adamların əllərinə telefon götürüb onlara bir zəng etməyi də yadlarına saldı. Beləliklə, bu qar çox savab əməllərə vəsilə oldu.

Həqiqətən də qar nə yaxşı ki, yağdı. Qara torpaq da bəyazlaşdı. Bu torpağın bəyazlaşmağa ehtiyacı vardı. Hələ kaş qar yağan günün gecələri elə bir ayaz olardı ki, yer-göy buz bağlayardı. Torpağın da, göyün də görüb dəhşətə gəldiyi əməllər heç olmasa, bir neçə günlüyə görünməz olardı...

Bir sözlə, qar, yaxşı ki, yağdı...

# Ermənilər yeni müharibə qorxusunda: Qərbi Zəngəzur azad edilir?



***ABŞ-ın məşhur "Stratfor" agentliyi Azərbaycan və Ermənistan arasında münasibətlərə dair növbəti proqnozunu işıqlandırıb. Proqnozda ən maraqlısı və diqqətçəkən məqam isə budur ki, hər iki ölkə arasında 2024-cü ilin ilk 6 ayına qədər yekun sülh müqaviləsi imzalanmazsa, Qərbi Zəngəzur istiqamətində yenidən qısamüddətli müharibənin baş verə biləcəyi iddia olunur.***

### Nikol Paşinyanın yenidən gah nala, gah da mıxa döyəcləməsi...

"Stratfor"un proqnozunda əsas olaraq Azərbaycan və Ermənistan arasında hələ də həllini tapmayan sərhəd delimitasiyası, anklavların taleyi və Naxçıvanla quru yolunun açılmaması kimi önəmli məsələlər vurğulanıb.

Bütün bu kimi amillər isə, ilk növbədə, Ermənistanda son günlər müşahidə edilən təlaşları daha da artırıb. Daha dəqiq desək, ölkənin baş naziri Nikol Paşinyanın yenidən gah nala, gah da mıxa döyəcləməsi, guya "dəhliz" sözünün üçtərəfli bəyannamədə qeyd olunmadığını iddia etməsi, hətta klounluq sərgiləyərək "dəhliz sözünü tapana pul mükafatı verəcəyəm" kimi siyasi xal toplamağa cəhd etməsi, əslində,





vəziyyətin həqiqətən də gərginləşməsinə səbəblər yaradır. Halbuki, bəyannamədə "dəhliz" ifadəsi daha rentabelli ifadə ilə əvəzlənib və tələb edilən reallığı əks etdirir -Azərbaycanın Naxçıvanla kommunikasiya əlaqələrinin vacibliyini ehtiva edir.

### Ədalət Verdiyev: "Stratfor"un proqnozu mümkün reallığı əks etdirir"

Mövzu ilə bağlı hərbi ekspert Ədalət Verdiyev mətbuata açıqlamasında "Stratfor"un proqnozunun mümkün reallığını istisna etməyib. "Düşünürəm ki, bu proqnozun doğruluq ehtimalı çox böyükdür. Çünki Ermənistan üzərinə götürdüyü öhdəliyi 3 ildən çoxdur ki, yerinə yetirmir. Həmin öhdəliklərin əksər hissəsini Azərbaycan Ordusu 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatları ilə təmin etdi. Lakin yenə də birgə bəyanatda qeyd olunan, Azərbaycanın Naxçıvanla ikitərəfli və maneəsiz hərəkətini təmin edən yolun açılmasına dair bənd belə desək, ölü nöqtədən tərpənməyib", - tanınmış hərbi ekspert vurğulayıb.

### Hərbi ekspert: "Biz ölkə başçısının son çıxışlarında da bu mesajların səsləndiyinin şahidi olduq"

Ədalət Verdiyev digər məqamı da xatırladıb və bildirib ki, digər tərəfdən, Azərbaycanın 8 kəndi hələ də Ermənistan işğalı altındadır. Belə olan halda Azərbaycan təbii ki, sonsuza qədər Ermənistan tərəfinin prosesləri ləngitməsinə səssiz qala bilməyəcək: "Sülh sazişi imzalanmasa, Ermənistan öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməsə, proseslərə məğlub tərəf kimi öz töhfəsini verməsə təbii olaraq Azərbaycanın səbr kasasını daşıracaq. Bu daha əvvəllər də belə olub. Biz ölkə başçısının son çıxışlarında da bu mesajların yumşaq bir şəkildə səsləndiyinin şahidi olduq".

### Proqnoz: "Ya Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcək, ya da bu öhdəlikləri Azərbaycan öz imkanları hesabına və birtərəfli qaydada həyata keçirəcək"

Hərbi ekspert Azərbaycan və Ermənistan arasında həll olunmayan bir çox məsələnin bu ilin sonuna qədər tam həllini tapmalıdır olduğunu deyib və əks halda Ermənistanın öz başına daha böyük bəla açа biləcəyini proqnozlaşdırıb: "Ya Ermənistan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcək, ya da bu öhdəlikləri Azərbaycan öz imkanları hesabına və birtərəfli qaydada həyata keçirəcək. Amma heç bir halda bu proesеslər 2025-ci ilə qalmayacaq. Düşünürəm ki, sərhəddə delimitasiya məsələsi uzun prosesdir və davam edən fazada olacaq. Digərləri üzrə isə real faliyyətlər və razılıqlar həyata keçiriləcək".

**Afət Tahirqızı**

ANALİTİK+AKTUAL

# Əgər it sənə hürürsə...

Dahilərin belə bir aforizmini oxumuşdum, "əgər it sənə hürürsə, deməli, onu kənardan yemləyən var". Haqlı və əsaslı aforizmdi. O mənada ki, itə şərait yaradırsan, imkanlar qurursan, ancaq kənar bir qida qəbul edincə, sənə hürməyə başlayır. Belə götürəndə cəmiyyətimizdə də kifayət qədər itsayağı xasiyyətə malik ünsürlər var. Dağıdıcı müxalif məxluqların davranışlarına və hərəkətlərinə nəzər yetirsək, qeyd olunan aforizmin dahiyanə kəlam olduğu bir daha aydın olur. Fikir







verin, Azərbaycanda doğulub, boya-başa çatıblar, həyata keçirilən sosial-iqtisadi siyasətdən bəhrələniblər, yaradılan demokratik şəraitdən istifadə etməklə özlərinə siyasi təşkilatlar yaradıblar, bütün bunlara görə dövlətə minnətdarlıq etməkdənsə, əks mövqe nümayiş etdirirlər. Nədən ki, xarici maraqlı dairələrdən maddi və mənəvi dəstək əldə edirlər. Ona görə ki, məkrli anti-Azərbaycan şəbəkələr onlara şirnikləndirici vədlər veriblər. Yəni çirkli pullar və qərəzli proqramlar dağıdıcı müxalifləri xalqın və dövlətin maraqlarına qarşı çıxmağa həvəsləndirib. Necə ola bilər ki, azərbaycanlı olasan 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsinə sevinməyəsən? Elə bir azərbaycanlı ola bilərmi, Xankəndidə, Ağdərədə, Xocalıda, Şuşada, Ağdamda və digər işğaldan azad edilən ərazilərdə üçrəngli bayrağımızın dalğalanmasından qürur hissi keçirib, fərəhlənməyəsən? Təəssüf ki, aramızda erməni dığaları kimi böyük qələbəmizdən və qələbədən sonra yaşanan sevinc hissindən qəm-qüssəyə qərq olub, böyük sarsıntı içində var-gəl edən soydaşlarımız var. AXCP sədri Əli Kərimlinin, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin, Milli Şuranın üzvləri Gültəkin Hacıbəylinin, Tofiq Yaqublunun və digərlərinin Azərbaycan dövlətinə qarşı düşmən mövqe sərgiləmələri onların erməni kökənli olmalarına heç bir şübhə yeri qoymur. Bu azmış kimi, bu qürurlu anlarda dağıdıcı müxalifət düşmən mövqedə dayanıb, xalqımızın milli ruhuna kölgə salmağa xidmət edən açıqlamalar verir, statuslar paylaşırlar.

### Fuad Qəhrəmanlı baş trolluğa iddialıdır

Elə məqamlar olur ki, dağıdıcı müxalifətin tör-töküntüdən ibarət olan ünsürləri açıq şəkildə bağlı olduqları şəbəkənin hədəflərini ortaya qoyurlar. Daha çox bu kimi amillər Qərbin və ABŞ-ın qaranlıq dairələrini müdafiə etməklə nümayiş etdirirlər. Yəni, ermənipərəst dairələrin siyasəti Azərbaycan dövləti tərəfindən tənqid olunduqda və ya iradlar bildirildikdə müxalif trol dəstəsi hay-küy qaldırıb, xarici ağalarının müdafiəçisi rolunda çıxış edirlər. AXCP sədr müavini Fuad Qəhrəmanlı paylaşdığı statusunda cəfəng illüziyalar ortaya qoyaraq, sayıqlayır: "Bir neçə gün öncə ABŞ Dövlət Departamentinin Qafqaz üzrə təmsilçisi Lui Bonon Ermənistandan sonra Bakıya gəlməli idi. Onun səfərinin məqsədi Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqton görüşünə hazırlıq işlərinə yekun vurmaq idi. Ancaq onu Bakıda qəbul etməkdən imtina etdilər. Bununla da Azərbaycan hakimiyyəti Dövlət katibinin köməkçisi Obrayanın məlum səfərinin nəticələrini şübhə altına almış oldu".

F.Qəhrəmanlının dilindən xarici anti-Azərbaycan şəbəkə daha bir narahatlığını ifadə etmiş olur: "Bu günlərdə ABŞ-n Bakıya gəlmiş səfiri Libbi də bir qədər gözlədikdən sonra etimadnaməsininin dövlət başçısı tərəfindən qəbul edilməməsinə görə ölkəni tərk edib geriyə qayıtmalı olub. Azərbaycanı Qərblə üz üzə qoymağa sürükləyən bu cür addımlar indiki halda daha çox Rusiyanı məmnun etməyə xidmət edir".

### Əli Kərimli xarici qaranlıq dairələrin sözçüsü rolunda çıxış edir

Baş trol olmağa iddialı F.Qəhrəmanlının paylaşdığı statusdan belə anlaşılır ki, xarici məkrli şəbəkə Azərbaycan dövlətinin prinsipial və qətiyyətli siyasətindən ciddi narahatdır. Bunu Əli Kərimlinin və trol dəstəsinin açıqladığı cəfəng fikirlərlə də ortaya qoyurlar. Həm də trollar vasitəsi ilə özlərini müdafiə etməyə çalışırlar. F.Qəhrəmanlı növbəti statusunda bu məsələni də açıq şəkildə nümayiş etdirir: "Bu gün iqtidar yeni geosiyasi reallıqlar və tələblər qarşısında aydın cavablar verməк, konkret addımlar atmaq əvəzinə, Qərbi oyalamaq, vaxt qazanmaq taktikasını seçib. ABŞ Dövlət katibinin köməkçisi Obrayanın Bakıya səfəri zamanı Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Vaşinqtonda görüşünə razılıq verilsə də, indi məlum olur ki, Bakı bu məsələdə verdiyi sözü yerinə yetirmək istəmir".

Əli Kərimlinin və trol dəstəsinin paylaşdıqları bu kimi statuslarla özlərini ifşa etmiş olurlar. Məlum olur ki, bu məxluqlar ABŞ-ın və Avropanın qaranlıq dairələrinə bağlı məxluqlardır. Yoxsa başlarından böyük siyasi proseslərdən və baş verənlərdən niyə danışırlar ki? Hələ də qanmırlar ki, özlərini kimə və neçəyə satırlarsa özləri bilərlər, ancaq Azərbaycan dövlətinin apardığı düzgün və əsaslı siyasət dəyişməzdir. Yaxşı münasibətə yaxşı cavab, pis yanaşmaya eyni adekvat cavab Azərbaycanın dövlətinin və xalqının dəyişməz mövqeyi və siyasətidir.

**İLHAM ƏLİYEV**

# Anti-Azərbaycan lobbiçiləri: subyektiv və qərəzli yanaşma

***Odlar diyarı Azərbaycana gələn hər bir kəs burada tolerantlıq mühitinin bir daha şahidinə çevrilirlər. Bu gün dünya ictimaiyyəti Azərbaycanın nümunəvi tolerantlıq, multikulturalizm modelini, dinlərarası dialoq mədəniyyətini qəbul edir və öyrənir. Təbii ki, hər hansı bir cəmiyyətdə sosial tolerantlığın bərqərar olmasında və multikultural dəyərlərin tərəqqisində siyasi hakimiyyətin iradəsi əvəzsizdir. Ölkəmizdə mövcud olan vəziyyət, reallıqlar dövlət siyasətinin məntiqi nəticəsidir.***

Məlumdur ki, çağdaş dünyamızın idarə mexanizmi, baxışı bəşər sivilizasiyası ilə birgə dəyişir, inkişaf edir. Yenilik axtarışı, yenilikçiliyə meyil, elm, texnologiyanın inkişafı və siyasi müstəvidə analizlər maraq doğurur. Belə bir zamanda Azərbaycana dünyanın müxtəlif dövətlərinin marağının artması ölkəmizin siyasi gücündən, iqtisadi inkişafından, sülhsevər dövlət olduğundan xəbər verir. İstər ictimai-siyasi baxışları, istər mədəni-sosial layihələri, istərsə də mötəbər tədbirlərin iştirakçısı olaraq, Şərqlə Qərbin ortaq dəyərlər modeli sayılan Azərbaycan tolerant, mehriban birgəyaşama mədəniyyəti baxımından da artıq dünya üçün bir örnəkdir. Müstəqillik tariximizdə ölkəmizin etibarlı tərəfdaş olması, təhlükəsizliyə, sabitliyə, tolerantlığa və s. verdiyi töhfələrin məntiqi nəticəsidir ki, Azərbaycan beynəlxalq ictimaiyyətin nüfuzlu üzvünə çevrilərək BMT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq qurumların üzvüdür. Belə nüfuza sahib olan Azərbaycana dünyanın istənilən qitəsindən nəzər saldıqda Odlar Diyarındakı həyat böyük marağa səbəb olur. Xüsusi ilə də dünyanın qarışıq dövründə bir məkanda yəhudilik, xristianlıq və islamın, eləcə də müxtəlif inancların qarşılıqlı hörmət şəraitində yaşaması bu marağın daha da artmasına dəlalət edir. Azərbaycan əhalisinin tərkibi həm etnik, həm dini, həm də məzhəb baxımından zəngin və müxtəlifdir. Tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini doğma hesab edir. Bütün tarixi dini abidələr dövlət tərəfindən qorunur, eyni zamanda, dövlət vəsaiti hesabına bərpası təmin edilir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilmişdir. Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır. Təbii ki. müsəlman məbədləri ilə yanaşı, pravoslav, katolik, alban kilsələrinin, sinaqoqların tikintisi, təmiri də həyata keçirilib ki, bu da Azərbaycanda dini tolerantlığın nümunəsidir. Dövlətin din sahəsindəki siyasəti beynəlxalq hüququn prinsiplərinə və normalarına, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrə, ölkə Konstitusiyasına və digər normativ hüquqi aktlara əsaslanır. Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında din dövlətdən ayrıdır və bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

## MULTİKULTURALİZM VƏ TOLERANTLIQ ƏNƏNƏLƏRİ

Azərbaycanda yaşayan qədim yəhudi, xristian, udin və digər milli azlıqların yaşayış məskənləri olan Krasnaya Sloboda, Nic və İvanovka kəndləri dövlətin daim diqqət və qayğısı ilə əhatə olunub. Qeyd edək ki, Azərbaycanda təkcə yəhudilərin 7 sinaqoqu, 2 orta məktəbi, 1 kolleci, 3 uşaq bağçası və Yəhudi Evi fəaliyyət göstərir. Qubada həmçinin dünya yəhudilərinin ən böyük icmalarından birinin yaşadığı məşhur Qırmızı Qəsəbə yerləşir. Bu və ya digər faktlar Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur. Bu ölkədə hər kəs mənsubiyyətindən, irqindən asılı olmayaraq azad nəfəs alır, sərbəst fəaliyyət göstərir. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycan Yəhudiləri dini icması, Avropa Yəhudilərinin Bakı dini icması, Bakı şəhəri Dağ Yəhudiləri dini icması, Bakı Krişna Şüuru dini icması, "Yeni həyat" Xristian İncil dini icması, Gürcü Yəhudilərinin Bakı dini icması, Xilaskar Yevangelik Lüteranların Bakı dini icması və s. onlarla belə qurumlar hər bir millətə ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurların, udilərin sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanların yaradıldığından xəbər verir. Ölkənin ictimai-siyasi, mədəni həyatında iştirak üçün tam bərabər hüquqa malikdirlər.



## "MÜSƏLMAN ALƏMİNDƏ HƏMRƏYLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ ÜÇÜN SƏYLƏRİMİZİ ƏSİRGƏMİRİK"

Ziddiyyətlərlə zəngin iyirmi birinci yüzillikdə Azərbaycan ənənələrinə sadiq qalaraq milli mənəvi dəyərlərə önəm verərək islamofobiya, islam adından sui-istifadə edərək qırğınlar törədənlərə malik olduğu dəyərləri ilə çağırışlar edərək onları sülhə, dostluğa dəvət edir. Çağırışları ilə bütün dünya xalqlarına, bütün dünya dövlətlərinə Azərbaycanın bugünkü həqiqətlərini bəyan edir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

## ETİRAZ BƏYANATININ MƏRAMI AZƏRBAYCAN REALLIQLARINA İSTİNADƏN OBYEKTİV MÖVQE İFADƏ ETMƏKDİR

Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi həmrəylik nümayiş etdirir. Bu günlərdə Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərlərinin ABŞ dövlət departamentinə müraciət ünvanlamaları bunu bir daha təsdiq edir. "Biz – Azərbaycanda fəaliyyət göstərən dini konfessiya rəhbərləri Məşvərət Şurasının üzvləri ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyasının (USCIRF) hesabatına istinadən Dövlət Departamentinin ölkəmizi 2023-cü ildə dini etiqad azadlığı üzrə "xüsusi izləmə siyahısı"na salmaq barədə qərarını qətiyyətlə pisləyir, bunu birmənalı şəkildə subyektiv və qərəzli yanaşma hesab edirik" – müraciətdə deyilir. Etiraz bəyanatının məramı Azərbaycan reallıqlarına istinadən obyektiv mövqe ifadə etməkdir: "Hazırda Azərbaycanda işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən yenidənqurma və bərpa işlərinə, məcburi köçkünlərin öz dədə-baba yurdlarına qayıdışı prosesinə beynəlxalq ictimaiyyətin humanitar və mənəvi dəstəyini gözlədiyimiz bir zamanda revanşist erməni dairələrinin haqsız, yalan və iftira dolu iddialarından qaynaqlanan bu kimi qərəzli hesabatlarla qarşılaşmağımızı ədalətsizlik kimi dəyərləndiririk."

Birmənalı şəkildə bəyan edilir ki, Azərbaycanın dini-mənəvi həyatında, dövlət-din münasibətləri müstəvisində heç bir problem mövcud deyil. Hesabatdakı iddiaların əksinə, Azərbaycan hüquqi-demokratik, milli-mənəvi dəyərlərinə ehtiram bəsləyən dünyəvi dövlət olaraq dini icmaların normal fəaliyyətinə hər cür şərait yaradır.

Azərbaycanda multikulturalizm dövlət siyasəti olaraq həyata keçirilir, heç bir fərq qoyulmadan, milli, dini, irqi ayrı-seçkilik edilmədən cəmiyyətin ictimai həyatında təmsil olunur, iştirak edirlər. "Ölkədə fəaliyyət göstərən bütün dini konfessiya və icmalara dövlət tərəfindən hər il müvafiq maddi yardım ayrılır, dini ibadət və ayinlərimiz sərbəst icra olunur, dövlət başçımız bayramlarımıza və mərasimlərimizə özəl diqqətlə yanaşır, ölkədaxili və beynəlxalq tədbirlərdə nümayəndələrimiz birgə iştirak edir. Dini ibadət məkanlarımıza gəlincə, ölkəmizdə müstəqillik dönəmində son illər ərzində tarixi məscid və ziyarətgahlarla yanaşı, kilsə və sinaqoqlar da təmir olunmuş, yeniləri inşa edilmişdir. Heydər Əliyev Fondunun həyata keçirdiyi "Tolerantlıq ünvanı – Azərbaycan" layihəsi çərçivəsində ölkəmizin bölgələrində, o cümlədən xaricdə onlarla tarixi-dini abidə bərpa olunmuş və yenidən qurulmuşdur" – fikirləri müraciətdə əksini tapıb. O da qeyd olunub ki, ABŞ-ın Beynəlxalq Din Azadlığı Komissiyası 2022-ci il hesabatında Ermənistan tərəfindən vaxtilə işğal altında olmuş ərazilərdə 403 tarixi və dini abidənin olmasını və 67 məsciddən 63-nün tamamilə dağıdılması, dördünün isə qismən dağıdılmasını və yararsız hala düşdüyünü təsdiq etmişdir.

## MANİPULYASİYA HALLARINA SON QOYMAĞA ÇAĞIRIŞ

Azərbaycanın 30 ilə yaxın müddətdə işğal olunmuş ərazilərində məscidlərlə bərabər xristian məbədləri və digər bölgələrdəki qədim Qafqaz alban kilsələri qəsb edilmiş, onların mənşəyi dəyişdirilərək qriqoryanlaşdırılmış, Xocavənd pravoslav kilsəsi isə dağıdılmışdır. Bəyanatda haqlı olaraq göstərilir ki, bu vandalizm hallarını törətmiş və 30 il ərzində əzəli Azərbaycan torpaqlarını işğal altında saxlamış Ermənistana qarşı Dövlət Departamenti tərəfindən hər hansı qınaq ifadə olunmamış, onu öz "qara siyahısı"na daxil etməmişdir. 2022-ci il hesabatında qeyd olunub ki, Azərbaycan dəfələrlə beynəlxalq səviyyədə, o cümlədən BMT Baş Assambleyasında onilliklər ərzində Ermənistanın Azərbaycanda törətdiyi vandalizm aktlarına hüquqi qiymət verilməsi, UNESCO-nun regionda mədəni irsin qorunması məsələlərinin qiymətləndirilməsi və məsləhətləşməsi üzrə müstəqil, şəffaf missiyasını dəstəkləməyə çağırmış, lakin nə UNESCO, nə də Beynəlxalq Din Azadlığı Komissiyası bu təkliflərə hələ də cavab verməmişdir.

"Bizi narahat edən daha bir məsələ 2023-cü il hesabatında erməni dini abidələrinin qorunacağına dair şübhələrin ifadə olunmasıdır. Halbuki ərazilərimiz Ermənistanın işğalında olan dövrdə, müharibə dönəmində və bu gün də Bakının mərkəzi meydanında erməni kilsəsi dövlət tərəfindən qorunmaqdadır, hətta 2010-cu ildə erməni katolikosu şəxsən ziyarət edərək orada ibadət ayini həyata keçirmiş, kilsə nəzdində kitabxana ilə tanış olmuşdur. ABŞ rəsmilərinə obyektivlik naminə Ermənistanda tarixən azərbaycanlılara məxsus dini abidələrin dağıdılması faktlarını araşdırmağı məsləhət görərdik. Sülh müqaviləsi bağlanmasında vasitəçi olmağa iddialı dövlət məsələlərə qərəzsiz yanaşmalıdır. Hesabat tərtib edənlərin diqqətinə çatdırmaq istərdik ki, Azərbaycanın dinlərarası mühitini, dini vəziyyətini izləmək üçün həyata keçirilən gündəlik tədbirlərdə iştirak etmək, dini konfessiyaların həyat və fəaliyyəti ilə yerində tanış olmaq, işğaldan azad edilmiş ərazilərimizə səfərlər etmək lazımdır. Əminik ki, diplomatik korpus nümayəndələrinin azad olunmuş Şuşaya və s. şəhərlərinə çoxsaylı səfərlərində amerikalı diplomatlar da iştirak etsəydilər, orada məscidlərlə yanaşı xristian və digər dinlərə məxsus məbədlərin necə qayğı ilə bərpa olunduğunun canlı şahidi olardılar və ABŞ diplomatlarının hesabatlarında bu faktlar öz əksini tapardı. Azərbaycanı peyklər vasitəsilə deyil, dost səfərləri ilə öyrənmək saxta, məkrli erməni qarayaxmalarının təsirindən azad, obyektiv münasibət nümayiş etdirməni təmin edərdi". ABŞ Dövlət katibinin bəyanatı Azərbaycanın nüfuzdan salınmasında, beynəlxalq siyasi və ictimai müstəvidə onun mənfi imicinin yaradılmasında maraqlı olan anti-Azərbaycan lobbiçilərin, eləcə də erməni revanşist təbliğatının nəticəsidir və bölgədə sülhün əldə olunması işinə xələl gətirir.

Aşkar faktdır ki, Azərbaycan 2020-ci ildə əzəli torpaqlarını işğaldan qurtardıqdan və 2023-cü ildə öz qanuni əraziləri üzərində tam suverenliyini bərpa etdikdən sonra erməni kilsəsinin rəhbərləri revanşizmin önündə gedir, aktiv şəkildə nifrət çağırışları ilə etnik dözümsüzlüyü təşviq edir, aqressiv separatizmi dəstəkləyirlər. Erməni dini liderləri öz xalqını sülhə dəvət etmək əvəzinə yeni müharibələrə, özgə ərazilərini işğala çağırırlar ki, bu da fundamental insan hüquq və azadlıqlarına, beynəlxalq hüquqa və dini dəyərlərə ziddir.

Sülhə nail olmaq imkanlarına maneə törədən qeyri-sabit dövlətlər Azərbaycandakı əmin-amanlıqdan, tolerantlıq ənənələrindən bəhrələnməli, dünyanı buxovlayan qərəzli çıxışlara qarşı birgə iradə nümayiş etdirməlidirlər. Ekstremizm və dözümsüzlük əleyhinə çıxış edən Azərbaycan kənar qüvvələrin, xaricdən gələn təhlükələrin qarşısını almaqda güclü və qətiyyətlidir. Belə ki, Azərbaycan istər ölkə səviyyəsində, istərsə də beynəlxalq səviyyədə dinlərarası və çoxmədəniyyətli harmoniyanın inkişafına təkan verir və bu nailiyyətin davamlı olması üçün tədbirlər həyata keçirir.

***Nəzakət ƏLƏDDİNQIZI***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Prezident seçkiləri: Bütöv Azərbaycanda ilk dəfə

***Məlum olduğu kimi, bu il fevralın 7-də növbədənkənar Prezident seçkiləri keçiriləcək. Bununla bağlı dövlət başçısı İlham Əliyev ötən ilin dekabrın 7-də Sərəncam imzalamışdı. Həmin gün respublika ərazisində qeyri-iş günü olacaq. Bu, müstəqilliyimizi bərpa etdikdən sonra Bütöv Azərbaycanda keçirilən ilk Prezident seçkiləri olacaq.***

Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə bildirdi ki, növbədənkənar seçkilərin keçirilməsinə bir neçə amil təkan verib: "Birinci səbəb təbii ki, suverenliyimizin tam bərpasıdır, çünki seçkilər bir dövrə yekun vurur. Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni, Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar Zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq Qələbəsidir. Təbii ki, bu yeni dövr başlayarkən, əlbəttə, prezident seçkiləri də bu yeni dövrün başlanğıcı olmalıdır. Çünki hər bir dövr bir zaman kəsiyidir və 30 il ərzində işğal altında olmuş ərazilərin işğaldan azad edilməsi və suverenliyi tam bərpa etməyimiz yeni dövrün başlanğıcı idi. Bu, birinci səbəbdir".



### Bütöv Azərbaycanın ilk seçkisi Prezident seçkisi olmalı idi

Dövlət başçısı ikinci səbəbin ilk dəfə olaraq müstəqil həyatımızda seçkilər ərazilərimizin hər bir yerində keçirilməsinin olduğunu qeyd etdi: "Prezident seçkiləri bütün digər seçkilərlə müqayisədə ən vacib seçkilər olduğu üçün mən hesab etdim ki, birinci bütün ərazilərdə keçiriləcək seçkilər prezident seçkiləri olmalıdır. Əgər biz seçkiləri vaxtında, yəni, 2025-ci ilin aprelində keçirməli olsaydıq, o zaman bələdiyyə seçkiləri daha tez keçiriləcəkdi. Mən hesab etdim ki, bu, düzgün olmaz. Azad edilmiş ərazilərdə və ölkəmizin hər bir yerində prezident seçkiləri birinci seçkilər olmalıdır".

Prezident bildirib ki, digər səbəb Prezident kimi fəaliyyətinin 20 ilinin tamamlanmasıdır: "Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik və 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur. Yəni, əsas səbəblər bunlardır. Amma mən bu səbəbləri, bu sıralamanı əhəmiyyət üzrə etmişəm. Birinci səbəb, əlbəttə ki, yeni dövrün başlanğıcıdır və prezident seçkiləri bu yeni dövrə də xeyirdua verəcəkdir. Bütövlükdə, hesab edirəm ki, cəmiyyətdə də bu barədə yaxın müzakirələr gedəcək. Bizim əsas milli ideyamız ərazilərimizi azad etmək idi. Yəni, bütün xalq bu ideya ətrafında, bu amal ətrafında birləşmişdi, biz bunu artıq əldə etmişik. Ona görə gələcək inkişafla bağlı, əlbəttə ki, mənim fikirlərim var və bir çox hallarda onlar həlledici olacaq təbii ki. Ancaq mən istərdim ki, cəmiyyətdə də bu məsələ ilə bağlı diskussiyalar getsin, siyasətçilər, politoloqlar, elm adamları, ziyalılar, yəni, bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır. Bu, bir ictimai müzakirə mövzusu olmalıdır".

### Yeni hədəflərə doğru

Dövlət başçısı bildirir ki, yeni dövrün yeni hədəfləri olmalıdır: "Biz yeni dövrə köhnə hədəflərlə gedə bilmərik, çünki o hədəflər artıq əldə edildi və indi bəzi ölkələr var ki, öz tarixi keçmişini, tarixi uğurları illər boyunca, onilliklər ərzində istismar edirlər. Halbuki onların özlərinin o zəfərlərə heç bir aidiyyəti yoxdur. Yəni, biz o ölkələrdən olmaq istəmirik. Biz nə etmişiksə etmişik, xalq da bunu qiymətləndirir və qiymətləndirəcək. Ancaq bu tarixi Zəfəri də bundan sonra daim istismar etmək düzgün olmaz.

Çünki birincisi, siyasi nöqteyi-nəzərdən düzgün olmaz. İkincisi, cəmiyyətdə elə bir sakitləşmə ovqatı da yaradılmamalıdır. Birincisi, biz hər zaman çox ayıq olmalıyıq, çünki bizə qarşı olan hərəkət, dediyimiz bu məsələlərlə bitməyəcək, bundan sonra da davam edəcək. Çünki biz dünya miqyasında çox böyük layları tərpətdik. Bəlkə də təhlilçilər görürlər ki, bizim Zəfərimizin bəzi ölkələr üçün fəsadları onlara çox baha başa gəlib. Böyük layları tərpətdik biz. Elə bir Zəfər çaldıq ki, bu, lokal əhəmiyyətli məsələ deyil. Bu, bir növ beynəlxalq gündəliyin əsas məsələlərinin birinə çevrilibdir" – deyə İlham Əliyev bildirib.



### Prezident seçkilərində 7 namizəd mübarizə aparacaq



Məlumat üçün qeyd edək ki, yanvarın 15-dən etibarən növbədənkənar prezident seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına başlanacaq. Seçki Məcəlləsinə əsasən, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri tərəfindən seçkiqabağı təşviqatın aparılmasına səsvermə gününə 23 gün qalmış başlanmalı və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılmalıdır. Növbədənkənar prezident seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına 2024-cü il yanvarın 15-i başlanılmalı və təşviqat fevralın 6-sı saat 8.00-da dayandırılmalıdır. Prezident seçkilərində qeydiyyata alınmış 7 namizəd mübarizə aparacaq. Həmin namizədlər Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyev, Prezidentliyə namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc, Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev, Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev və Prezidentliyə namizədliyi özü tərəfindən irəli sürülən Fuad Əliyevdir.

Yekun olaraq, növbədənkənar Prezident seçkilərinin Azərbaycan tarixində ilk dəfə olaraq ölkəmizin ərazi bütövlüyünün təminatı, suverenliyimizin bərpası fonunda keçirilməsi dövlətçiliyimiz naminə böyük tarixi önəm kəsb edir. Bu seçkilər həm də dünyaya mesaj olaraq göndəriləcək. 44 günlük Vətən Müharibəsi və 2023-cü ilin antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından sonra keçiriləcək növbədənkənar prezident seçkiləri ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti olacaq.

***Lalə Mehralı***

# "Güvənsizlik boşluqdur, təşviş və panika verir"



*"Güvən əvvəlcə insanın özü ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib. Onun sözlərinə görə, güvəni qıracaq bir şey olursa, bu, qarşı tərəfin əməyidir: "İnsan münasibətə girdiyi şəxsə güvənsizlik problemi yaşayırsa, iki cütlüyün arasında problem olaraq yüksələcək.*

Hər zaman da qarşı tərəf günahlandırılır. "Mən sənə güvənmirəm" deyən insan anlamalıdır ki, bu, onun özü ilə bağlı problemdir. Əgər ortada güvəni qıracaq məsələ yoxdursa, belə olur. Güvənsizlik problemi yaşayan şəxs qarşı tərəfi manipulyasiya edir ki, onu inandırmaq üçün nəsə etsin. Burada bir az eqoizm, özgüvənsizlik var. Ümumiyyətlə, güvən probleminin başlıca səbəblərindən biri özgüvənsizlikdir. Yaxşı olar ki, qarşı tərəfi günahlandırmadan əvvəl şəxs özünün açıq qalan məsələlərini həll etsin. Çox vaxt insana güvənməyərək onu vecsiz hala gətirirk. Sonradan isə həmin şəxs güvən qazanmaq istəmir, əldə olunan güvəni qorumağa çalışmır. Bir münasibətə girirsinizsə, insana tam güvənin. Çünki bu, onun layiq olduğu münasibət deyil, sizin münasibətə olan baxışınızdır. Qarşınıza pis adam çıxıb sizi aldadarsa, onsuz da, siz onun qarşısını ala bilməzsiniz. Birinin fikrində aldatmaq varsa, siz ona güvənsəniz-güvənməsəniz də bu, baş verəcək. Güvənsizlik insanı çox yorur, təəssüf hissi, gərginlik yaradır. Tövsiyə edərdim ki, uşaqlarınıza da güvənlə yanaşın. Siz onlara güvənsəniz daha yaxşı emosional bağlılığa sahib ola bilərsiniz".

Psixoloq bildirib ki, güvən olmayan münasibətin davam etməsinin müxtəlif səbəbləri var. Maddi məsələyə görə, yaxud uşaqlara görə ailəni qoruya bilirlər. Kimsə boşansa, valideynləri tərəfindən təzyiq görməkdən qorxduğu üçün ayrılmır. Bərabər qalmaq bəzən problemlə əlaqəli olmur. Güvənməyən insan ən çox özünü incidir, qarşı tərəfi bezdirir. Güvənsizlik boşluqdur, təşviş və panika verir. Əgər mütəmadi insanlara güvənmirsinizsə, peşəkara müraciət edin. Qarşı tərəf sizə nəsə edibsə, ona görə güvənmirsinizsə, bu, başqa mövzudur. Söhbət qadından gedirsə, güvəni qaytarmaq çətindir. Qadın sevdiyi üçün, uşaqlara görə davam edə bilər, amma o sual həmişə beynində olacaq. Ona görə, hörmətli partnyorlar bir-birinizin güvənini qırmadan əvvəl çox düşünün. Güvəni geri qaytarmaq çox çətin olur".

**Söylü Ağazadə**

# Bakıda gimnastika üzrə Dünya Kuboku keçiriləcək



*Bakıda gimnastika üzrə 3 Dünya Kuboku keçiriləcək. SİA Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidmətinə istinadla bildirir ki, 2024-cü ilin ilk mötəbər turniri fevralın 23-25-də batut gimnastikası və tamblinq üzrə olacaq.*

Yarış Milli Gimnastika Arenasında keçiriləcək. Qeyd edək ki, adıçəkilən məkan martın 7-10-da idman gimnastikası, aprelin 19-21-də isə bədii gimnastika üzrə Dünya Kubokuna ev sahibliyi edəcək.


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bakı məktəblərinə 1-ci sinfə qəbulda YENİLİK

*Bakı şəhərində 2024-2025-ci tədris ili üçün uşaqların birinci sinfə elektron qeydiyyatı prosesində ərazi prinsipi tətbiq olunan ümumi təhsil müəssisələrinin əhatə dairəsi genişləndiriləcək.*



Bakı Şəhəri üzrə Təhsil İdarəsindən SİA-ya bildirilib ki, süni şagird sıxlığının qarşısını almaq üçün ərazi prinsipi tətbiq olunan məktəblərdə, ilk növbədə həmin təhsil müəssisələrinin mikroərazisində daimi qeydiyyatda olan vətəndaşlar övladlarını elektron sistem vasitəsilə qeydiyyatdan keçirə biləcəklər. Daimi qeydiyyatı olmayan valideynlərə şagird sıxlığı olmayan məktəbləri seçmək imkanı yaradılacaq.

Qeyd edək ki, I sinfə qəbulla bağlı mikroərazilər müvafiq icra hakimiyyət orqanlarının təqdim etdikləri dislokasiyaya uyğun olaraq müəyyənləşdirilib.

# "Real" Superkubokun qalibi oldu!

Futbol üzrə İspaniya Superkubokunda final oyunu keçirilib. Belə ki, Səudiyyə Ərəbistanında oynanılan həlledici matçda "Real" və "Barselona" üz-üzə gəliblər. Qarşılaşma Madrid klubunun 4:1 hesablı qələbəsi ilə başa çatıb. Sözügedən görüşdə Vinisius Junior het-trik edib. Beləliklə, "Real" tarixində 13-cü dəfə İspaniya Superkubokunu qazanıb.




## ELAN

**Yusifov Mehti Cahangir oğluna Gəncə şəhəri Yeni Azərbaycan Partiyası tərəfindən verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**



*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**